

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

3 dekabr 2025-ci il, çərşənbə
№ 220 (7047)
Qiymətı 60 qəpik


# Hərbdə də, diplomatiyada da mütləq qələbə!

## ATƏT-in Minsk qrupunun ləğvi - de-faktodan de-yureyə uzanan yol




Bax səh. 2

## İlham Əliyev: Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əməkdaşlıq geniş gündəliyə malikdir

Bax səh. 2

## Təqaüd sistemində yenilik...

Nazirlər Kabineti "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda dəyişikliklər edib. Dəyişikliyə əsasən, əmək pensiyasının yenidən hesablanması işləyən əmək pensiyaçısının fərdi şəxsi hesabının sığorta hissəsində müraciət tarixinə toplanmış pensiya kapitalına əsasən həmin tarixdən, işləməyən əmək pensiyaçısına münasibətdə isə şəxsin işləməyən əmək pensiyaçısı kateqoriyasına keçdiyi gündən, lakin müraciət edilən tarixdən əvvəlki ən çoxu üç il üçün ödənilməklə həyata keçiriləcək. Qulluq stajına görə, təyin edilən əmək pensiyasına əlavələri 50 faiz həcmində ödənilən və ya dayandırılmış şəxslərin işdən azad olunması ilə əlaqədar onların əmək pensiyasının əməkhaqqı isə dövlət məvacibi yenidən hesablanmaqla təmin olunacaq.

Yeni dəyişikliklərin əsas mahiyyəti daha tez pensiyaya çıxanların siyahısında dəqiqləşdirilmələr aparılmaqla, güzəşt hüququna malik şəxslərin bu siyahıya əlavə edilməsini nəzərdə tutur. Belə ki, qızıl otağının nəzarətçiləri və emal, qırma, daşıma, qələviləşdirmə sahələrində nəzarətçilər əlavə olunmaqla mühəndislər...

Bax səh. 4

## Milli Məclisin iclasında...




Bax səh. 3

### 2026-cı ilin büdcə zərfinə daxil olan qanun layihələri ikinci oxunuşda müzakirə edilib

## Manatın məzənnəsi sabit qalacaq

Dünyanın nüfuzlu iqtisadi institutlarından olan "Fitch Group"a aid olan "Fitch Solutions" şirkəti Azərbaycanla bağlı açıqladığı yeni hesabatında pul-kredit, monetar və maliyyə sabitliyinin vəziyyəti və proqnozlarını şərh edib. Qurumun ekspertlərinin qənaətinə görə, Azərbaycan manatının ABŞ dollarına qarşı məzənnəsi 2026-cı ildə 1,7 səviyyəsində qalacaq və yaxın dövrdə məzənnə dəhlizində ciddi dəyişikliklər gözlənilmir. Güclü xarici şoklar baş verMədiyi halda manatın məzənnəsinin kəskin dəyişikliyinə səbəb olacaq amillər üçün əsaslar yoxdur. Proqnoza əsasən, Mərkəzi Bank inflyasiya təzyiqlərinin yüksək olmasına baxmayaraq, ümumilikdə qiymət sabitliyini təmin etməklə ehtiyatlı siyasət yürüdür. Bu isə məzənnə sabitliyini dəstəkləyən əsas amillərdən biri kimi mühüm yer tutur.

"Fitch Solutions"un qənaətinə görə, manatın dollara qarşı sabit qalması ölkədə investorların etimadını gücləndirir və uzunmüddətli iqtisadi planlaşdırmanı asanlaşdırır. Eyni zamanda, avronun nisbətən ucuzlaşması ölkənin Avropa ilə ticarətində qiymət rəqabətliliyini artırmaq üçün əlverişli şərait yarada bilər...

Bax səh. 4

## Qara dənizdə təhlükə...

Bax səh. 6

## Kiyev Avropadan fəal dəstək gözləyir

Bax səh. 7

## Maduro hakimiyyətdən gedirmi?

Bax səh. 7

## Təhrif, yoxsa qəsd?

### "Klinqendal"ın mövqeyi ədalətsiz və beynəlxalq hüquqa ziddir



Bax səh. 3

## Müharibələrin qazandığı milyardlar...



Bax səh. 6

# İlham Əliyev: Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əməkdaşlıq geniş gündəliyə malikdir

## Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana



Əlahəzrət,

Əziz Qardaşım,

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizin qətiyyətli liderliyiniz altında ölkədə aparılan irimiqyaslı quruculuq işlərini, möhtəşəm və nümunəvi inkişafı görməkdən böyük sevinc duyuruq. Bütün bunlar Sizin çoxşaxəli fəaliyyətinizin, müdrik rəhbərliyinizin, Vətənə və xalqa yorulmadan göstərdiyiniz xidmətin bəhrəsidir.

Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əlaqələr xalqlarımız arasında qardaşlığa, dostluğa, qarşılıqlı etimada, anlaşmaya və dəstəyə əsaslanır. Ötən dövr ərzində bu möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimizin yüksələn xətt üzrə inkişaf edərək keyfiyyətcə yeni səviyyəyə çatması məmnunluq doğurur. Şübhəsiz ki, ali səviyyəli müntəzəm qarşılıqlı səfərlər, görüşlər, sıx əməkdaşlığımız bu münasibətlərin daha sürətlə inkişafına və möhkəmlənməsinə şərait yaradır.

Sentyabr ayında Sizin Azərbaycana rəsmi səfəriniz ikitərəfli əlaqələrimizin inkişafına yeni təkan vermişdir. Səfər çərçivəsində imzalanmış bir sıra sənədlər, xüsusilə də “Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə” dövlətlərarası əlaqələrimizi daha yüksək pilləyə qaldırmış, əməkdaşlığımızın ənənəvi sahələri ilə yanaşı yeni istiqamətlər üzrə də birgə fəaliyyətimizi genişləndirmişdir. Eyni zamanda səfər zamanı işğaldan azad olunmuş Qarabağ regionunu ziyarət etməyiniz xüsusi rəmzi məna daşıyır və biz bunu qardaşlığımızın və həmrəyliyimizin bariz nümunəsi olaraq dəyərləndiririk.

Hazırda Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əməkdaşlıq geniş gündəliyə malikdir. İqtisadi-ticari, neft-qaz, bərpaolunan enerji, investisiya, rəqəmsallaşdırma və digər sahələrdə səmərəli birgə fəaliyyətimiz uğurla inkişaf edir.

Əminəm ki, ölkələrimizin və xalqlarımızın rifahına xidmət edəcək əməkdaşlığımızın dərinləşdirilməsi və şaxələndirilməsi istiqamətində birgə səylərimiz bundan sonra da ardıcıl olaraq və uğurla davam etdiriləcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, Birləşmiş Ərəb Əmirliklərinin qardaş xalqına daim firavanlıq və rifah arzulayıram.

Hörmətlə,

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

# Azərbaycan Laos ilə əməkdaşlığın yeni məzmunla zənginləşməsinə xüsusi önəm verir

## Laos Xalq Demokratik Respublikasının Prezidenti Zati-aliləri cənab Thonqlun Sisulitə



Hörmətli cənab Prezident,

Laos Xalq Demokratik Respublikasının yaranmasının 50-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan Laos ilə əlaqələrin genişlənməsinə, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə əməkdaşlığın yeni məzmunla zənginləşməsinə xüsusi önəm verir.

Əminəm ki, ölkələrimiz arasında dostluq münasibətlərini möhkəmləndirmək, qarşılıqlı faydalı əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

Hörmətlə,

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

# Hərbdə də, diplomatiyada da mütləq qələbə!

## ATƏT-in Minsk qrupunun ləğvi - de-faktodan de-yureyə uzanan yol

Çoxdan gözlənilən xəbər gəldi. Söhbət ATƏT-in Minsk qrupunun ləğvindən gedir. Azərbaycan və Ermənistanın cari il avqustun 8-də ATƏT sədrliyinə birgə müraciətindən sonra ATƏT Nazirlər Şurasının 1 sentyabr 2025-ci il tarixində qəbul edilmiş qərarına uyğun olaraq, 30 noyabr 2025-ci il tarixində Minsk Prosesi və onun əlaqədar strukturlarının bağlanması yekunlaşıb. Bununla bağlı ATƏT bəyanat yayıb. “Bütün zəruri inzibati prosedurların başa çatdırılması bağlanma prosesinin başa çatması deməkdir. Bu proses 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanın imzaladığı və ABŞ Prezidenti Donald Trampın da şahidi olduğu tarixi Birgə Bəyannamənin ardınca ATƏT-in bütün 57 iştirakçı dövlətinin 1 sentyabr tarixli konsensus qərarını həyata keçirib”, - deyə bəyanatda vurğulanıb.

### Böyük güclərin maraqları və onilliklər ərzində həllini tapmayan münaqişə

Artıq tarix olan ATƏT-in Minsk qrupu keçmiş Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həll edilməsi məqsədilə yaradılan bir qurum idi. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində SSRİ-nin dağılması ilə müstəqillik əldə edən Ermənistan və Azərbaycan 30 yanvar 1992-ci ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM, 1 yanvar 1995 - ci ildən-Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və ya ATƏT) işinə qoşulublar. Bununla da qeyd olunan beynəlxalq təşkilatın keçmiş Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli variantının axtarışına cəlb edilməsinə hüquqi zəmin yaranıb.

Minsk qrupunun tarixi ATƏM-in Xarici İşlər Nazirləri Şurasının 24 mart 1992-ci il tarixlində Helsinkidə keçirilmiş görüşündən başlayır. Həmin görüşdə Dağlıq Qarabağda vəziyyət müzakirə olunub və ATƏM-in Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair Minsk konfransının çağırılması haqqında qərar qəbul edilib. Qrupun üzvləri ilkin olaraq Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, Türkiyə, İsveç, Finlandiya və ABŞ-ı əhatə edirdi, sonradan Fransa da daxil olaraq ümumilikdə 11-dən 13-ə qədər ölkəni birləşdirib. 1994-cü il dekabrın 5-6-da ATƏM-in Budapeştdə keçirilən Zirvə toplantısında həmsədrlik institutu təsis edilib. Minsk konfransına iki həmsədrin təyin olunması və Minsk qrupunun iclaslarının onların birgə həmsədrliyi ilə keçiriləcəyi barədə qərar qəbul olunub. Minsk prosesinin həmsədrlik institutu təsis olunarkən, ona əvvəlcə Finlandiya ilə Rusiya, daha sonra isə 1995-1996-cı illər ərzində İsveç və Rusiya başçılıq edib. 1 yanvar 1997-ci ildən ATƏT-in Minsk qrupuna həmsədrlər qismində ABŞ, Rusiya və Fransa başçılıq ediblər.

Qurumun yaranma tarixinə və həmsədrlik institutunun təsis edilməsinə təsadüfən diqqət çəkmədik. Əslində, 1994-cü ildə Minsk qrupunda həmsədrlik institutunun formalaşdırılması ilə qurumun fəaliyyəti maraqlı güclərin monopoliyası altına keçdi və burada yuxarıda sadaladığımız digər ölkələrin təmsilçiliyi formal səciyyə daşımağa başladı. Yəni həmsədrlik təsisatı yarandıqdan sonra Minsk qrupunun fəaliyyəti əsas etibarı ilə 3 dövlət tərəfindən istiqamətləndirilirdi. Digər üzv ölkələrin, məsələn Almaniya, Türkiyə və İtaliyanın səs hüququ və təsir imkanları praktik olaraq məhdudlaşdırılmışdı. Kollegial fəaliyyət prinsipindən uzaqlaşma həmsədrlərin diqtə etmək imkanlarının artması ilə müşayiət olunurdu. Ən pis məqam isə ondan ibarət idi ki, Minsk qrupu formatında sülhyaratma prosesində əsas təsir rıçaqlarını ələ alan üç dövlətin keçmiş Dağlıq Qarabağ münaqişəsinə selektiv yanaşmaları var idi. Bu yanaşmalar beynəlxalq hüquqla əslə üst-üstə düşmürdü və daha çox həmin dövlətlərin regional maraqlarını ifadə edirdi. Vəziyyəti qəlizləşdirən və Minsk qrupunun fəaliyyətini onilliklər boyunca səmərəsiz edən həm də ABŞ-ın, Fransanın və Rusiyanın işğalçı tərəf olan Ermənistana havadarlıq etmələri idi. Fakt ortada idi. Ermənistan xarici güclərin dəstəyi ilə ötən əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycandakı qarışıq vəziyyətdən istifadə etməklə suveren dövlətin ərazilərinin 20 faizini öz nəzarətinə keçirmişdi. Bu, güc yolu ilə həyata keçirilən ilhaq idi. BMT TŞ-nin müvafiq 4 qətnaməsi də bunu təsdiqləyirdi. Həmin qətnamələr özündə Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasını ehtiva edirdi. Sülhyaratma prosesinin açarı da məhz BMT qətnamələrinin icrasının təmin edilməsində, işğal faktına son qoyulmasında idi. Minsk qrupunun həmsədr dövlətləri isə işğalçı dövlətə olan xüsusi münasibətlərinin girovluğunda qalaraq beynəlxalq hüquqa, BMT qətnamələrinə məhəl qoymurdular. Keçmiş Dağlıq Qarabağ münaqişəsi dünyada yaşanan yeganə münaqişə deyildi. Dünya təcrübəsindən bəlli olduğu kimi, bir sıra hallarda ilhaq siyasəti aparan dövlətlərə qarşı sərt tədbirlər görülüb, sanksiyalar tətbiq olunub, hətta hərbi müdaxiləyə də əl atılıb. Lakin Minsk qrupunun həmsədrləri ədalətli həll variantı tapmaq, beynəlxalq hüququ təmin etmək üçün bu mexanizmlərin hər hansı birinin tətbiqi barədə ümumiyyətlə düşünməyiblər və daim işğalçı ilə işğala məruz qalan tərəf arasında bərabərlik işarəsi qoymağa çalışıblar. Nəticə etibarı ilə həmsədr dövlətlərin regional təsir alətinə çevrilən Minsk qrupunun əsas məqsədi münaqişəni həll etmək yox, onu sonsuzluğa qədər uzatmaq, işğal məhsulu olan keçmiş status-kvonu hansısa bir yolla legitimləşdirmək idi. Beynəlxalq hüququn bərqərar olmasını istəyən Azərbaycan hər zaman Minsk qrupunun fəaliyyətinin gücləndirilməsinə çağırışlar edirdi. Lakin həmsədrlər bu çağırışları sanki eşitmirdilərr. Əksinə, biz müşahidə edirdik: İşğal illərində güclü erməni lobbisinin təsir dairəsində olan Fransa hakimiyyəti Ermənistana hərtərəfli dəstəyini daha da artırırdı. ABŞ-ın xüsusilə C.Bayden administrasiyası dönəmində İrəvanla münasibətləri pik həddədək yaxşılaşmışdı. Rusiya da onun tarixən forpostu olmuş ölkədə öz təsir imkanlarını daha da genişləndirməyə çalışırdı. Beləliklə də, Minsk qrupu maraqlı tərəflərin təsir alətinə çevrilmişdi və nəticə də məlumdur: Keçmiş münaqişə otuz il ərzində həllini tapmadı, dondurulmuş vəziyyətdə qaldı.



### Üç absurd “həll” variantı və Azərbaycanın qətiyyəti

Minsk qrupunun təxminən üç onilliyi əhatə edən fəaliyyəti (oxu: fəaliyyətsizliyi - red.) daha çox üç absurd təkliflə yadda qalıb. Bunlar aşağıdakılardır:

1.Ortaq dövlət modeli,

2. 2001-ci ildə irəli sürülən Kazan prinsipləri,

3. 2007-ci il Madrid prinsipləri.

Hər üç həll variantı son nəticədə işğalçı dövlətin maraqlarının təmin olunmasını hədəfləyirdi. Ortaq dövlət modeli işğal olunmuş ərazilərdə Azərbaycanın suverenliyini məhdudlaşdıraraq Ermənistanın təsirini qanuniləşdirməyə yönəlmişdi.

Kazan prinsipləri ərazi bütövlüyü ilə bağlı yanaşmaları səthi şəkildə təqdim edir və işğal olunmuş torpaqların dərhal qaytarılmasını təmin etmirdi. Bu isə beynəlxalq hüququn Azərbaycanın ərazi bütövlüyünə verdiyi üstünlükdən uzaq idi.

Madrid prinsipləri ilə əslində uzun illər davam edən danışıqlar sıfırlanırdı. Burada məqsəd Ermənistanın faktiki işğalına hüquqi status qazandırmaq, Azərbaycanın suverenliyinə xələl gətirmək və məhdudlaşdırmaq idi. Hər üç prinsip BMT qətnamələrinin məzmunundan çox uzaq idi və hansısa bir yolla Errmənistanın ilhaqına hüquqi əsaslar yaratmağa xidmət edirdi. Təbii ki, müstəqillik və suverenlik prinsiplərini önə çəkən və beynəlxalq hüquqa istinad edən Azərbaycan bu “həll” variantları ilə razılaşa bilməzdi və razılaşmadı da.

Minsk qrupunun fəaliyyətsizliyi fonunda Ermənistanın işğalçılıq siyasətindən əl çəkməməsi, iki ölkə arasında dövlət sərhədi və keçmiş təmas xətti boyunca təxribatları artırması, yeni ərazi iddialarından çıxış etməsi son nəticədə 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsinin başlamasını qaçılmaz zərurətə çevirdi. Bu, Azərbaycan üçün ədalətli müharibə idi, döyüşlər bizim ərazimizdə gedirdi. İkinci Qarabağ müharibəsi günlərində də Minsk qrupunun fəaliyyətində dönüş müşahidə edilmədi, işğalçı dövlətə hansısa bir formada təsir göstərilmədi. Əksinə, Azərbaycandan müharibəni dayandırmaq istənilirdi. Açıq şəkildə bildirilirdi ki, keçmiş status-kvoya qayıtmaq, danışıqları yenidən bərpa etmək lazımdır. Yenə də beynəlxalq hüquq unudulurdu. Ərazi bütövlüyünü və suverenliyini təmin etməkdə israrlı olan Azərbaycan təzyiqlərə baxmayaraq, cəmi 44 gün ərzində işğalçı dövləti kapitulyasiyaya məruz qoydu. 44 günlük müharibənin və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatının nəticələrinə uyğun olaraq Azərbaycan ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsinə hərbi-siyasi yolla nail oldu.

### 5 il ərzində reallıqda mövcud olmayan Minsk qrupu

Qeyd etdiyimiz kimi, Azərbaycanla Ermənistan arasında uzun illər ərzində mövcud olmuş münaqişənin əsas səbəbi qonşu dövlətin işğalçılıq siyasəti idi. 44 günlük müharibənin nəticələri ilə respublikamız regionda yeni reallıqlar yaratdı. Münaqişənin, Minsk qrupunun acı bağırsaq kimi uzatdığı danışıqlar prosesinin predmeti daha yox idi. Faktiki olaraq Minsk qrupunun mandatını və yaxud vəzifəsini Azərbaycanın özü yerinə yetirmişdi. Beləliklə qurumun mövcudluğuna da ehtiyac qalmamışdı. Bunu Prezident İlham Əliyev postmüharibə dövründə müxtəlif auditoriyalar qarşısında qətiyyətlə bəyan edib. Minsk qrupunun ləğvi təklifi də qalib Azərbaycandan gəlib. Bunu Səudiyyə Ərəbistanının “Əl-Ərəbiyyə” telekanalına müsahibəsində bir daha xatırladan dövlətimizin başçısı vurğulayıb: “Ermənistan rəsmi şəkildə Qarabağı Azərbaycanın hissəsi kimi tanıdığını və münaqişənin başa çatdığını bildirdiyi halda, Minsk qrupunun hüquqi mövcudluğu absurddur. Əgər onu saxlamaqda israrlı olsalar, bu, onların Qarabağla bağlı hələ də ərazi iddialarının olduğunu göstərir. Bu, mövqeyimizin əsasında dayanan məntiq idi. Ermənistanı anlatmaq üçün çox vaxt və səy sərf etdik ki, hər iki tərəf Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-ə məktub yazsın və bu, Prezident Trampın iştirakı ilə baş verdi”.

Bəli, Minsk qrupunun həyatda qalmaq naminə sərgilədiyi çırpıntılar bir nəticə vermədi. De-fakto mövcud olmayan qurumun de-yure ləğvinə gedən yolda 5 il zaman itirilsə də, ilahi ədalət öz yerini tapdı. Artıq Minsk qrupunun tabutuna son mismar vurulub. Qurumun ləğvi Azərbaycan diplomatiyasının növbəti uğurudur. Hərbdə də, diplomatiyada da mütləq qələbə bizimlədir!

*Mübariz ABDULLAYEV*

# Milli Məclisin iclasında...

# 2026-cı ilin büdcə zərfinə daxil olan qanun layihələri ikinci oxunuşda müzakirə edilib

*Nardar BAYRAMLI*

Dekabrın 2-də Milli Məclisin növbəti iclası keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyinə 6 məsələnin daxil edildiyini bildirib. İclasda 2026-cı ilin büdcə zərfinə daxil olan qanun layihələri ikinci oxunuşda müzakirə olunub.

Qeyd edək ki, gələn il üçün dövlət büdcəsinin gəlirləri 38,6 milyard manat, xərcləri isə 41,7 milyard manat məbləğində proqnozlaşdırılıb. Gəlirlərin 22,2 milyard manatı və ya 57,4 faizi qeyri-neft sektoru üzrə daxilolmalar hesabına reallaşacaq və bu, cari illə müqayisədə 2,1 milyard manat və ya 10,6 faiz çoxdur. Qeyri-neft sektorundan gəlirlərin 13,3 milyard manatını vergi orqanlarının, 6,9 milyard manatını gömrük orqanlarının xətti ilə daxilolmalar, 1 milyard manatını büdcə təşkilatlarının ödənişli xidmətləri üzrə daxilolmalar, 531 milyon manatını sair daxilolmalar, 450 milyon manatını isə dividendlər təşkil edəcək.

Neft-qaz sektorundan gəlirlər isə 16,4 milyard manat və ya büdcə gəlirlərinin 42,6 faizi məbləğində proqnozlaşdırılır. Cari illə müqayisədə cəmi vergi orqanlarının xətti ilə daxilolmalar 9,1 faiz, gömrük rüsumları və idxala vergi daxilolmaları 4 faiz, ödənişli xidmətlər üzrə daxilolmalar 16 faiz, digər daxilolmalar isə 9,6 faiz çox olacaq.

2026-cı ildə büdcə kəsiri 3,1 milyard manat məbləğində proqnozlaşdırılır. Büdcə kəsiri özəlləşdirmədən daxilolmalar, dövlət borclanması və vahid xəzinə hesabının qalığı ilə maliyyələşdiriləcək.

Verilən məlumata görə, növbəti ildə "Böyük Qayıdış" proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulmasına büdcə xərclərinin 8,4 faizinə bərabər, yaxud 3,5 milyard manat məbləğində vəsait ayrılacaq. Müdafiə və milli təhlükəsizlik məqsədilə dövlət büdcəsi xərclərinin 21 faizi həcmində və ya 8,7 milyard manat məbləğində vəsait nəzərdə tutulur və bu, cari illə müqayisədə 319 milyon manat çoxdur. 2026-cı ildə dövlət büdcəsi xərclərinin 41 faizi, cari xərclərin isə 68 faizi və yaxud 17,1 milyard manat sosialyönlü xərclərə yönəldiləcək. Bu, 2024-cü ilin icra göstəricisi ilə müqayisədə 2,5 milyard manat və ya 17 faiz çoxdur. Əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən xərclər üçün gələn ilin dövlət büdcəsində 4,9 milyard manat vəsait nəzərdə tutulur. Bu, 2025-ci ilə nisbətən 121 milyon manat, 2024-cü ilin icra göstəricisinə nisbətən isə 722 milyon manat çoxdur. Cari illə müqayisədə 151 milyon manat artımla proqnozlaşdırılan sosial müavinətlərə, təqaüdlərə və digər sosial ödənişlərə 2,8 milyard manat vəsait sərf ediləcək. Keçmiş məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı xərclər növbəti ildə 285 milyon manat proqnozlaşdırılır.



Bununla yanaşı, 2026-cı ilin dövlət büdcəsindən səhiyyə xərcləri üçün 2 milyard manat vəsait ayrılacaq ki, bu da 2024-cü ilin icra göstəricisinə nisbətən 11 faiz çoxdur. Bütövlükdə, gələn il üçün icmal büdcədən səhiyyə xərclərinə cəmi 3,7 milyard manat vəsait ayrılacaq. Təhsil və elm xərclərinə 5,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu da 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə 658 milyon manat və ya 14,3 faiz çoxdur. Növbəti ildə dövlət sifarişi və dövlət hesabına kadr hazırlığı üzrə təhsil alanların sayı 150 min nəfərə, təqaüd alanların sayı isə 121 min nəfərə çatacaq. Gələn il əlilliyi olan, valideyn himayəsindən məhrum olmuş, şəhid ailələri və müharibə veteranı statusu almış güzəştli kateqoriyaya aid olan 18,5 min tələbənin təhsil və təqaüd xərcləri üçün 42 milyon manat vəsait proqnozlaşdırılır.

Növbəti ildə kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi ilə bağlı tədbirlərin maliyyə təminatı üçün dövlət büdcəsindən 1,2 milyard manat vəsait ayrılacaq. Kənd təsərrüfatına ayrılacaq vəsaitin 42 faizi və yaxud 513 milyon manatı ərzaq təhlükəsizliyi tədbirlərinə yönəldiləcək. Bu xərclərin 40 faizi və ya 490 milyon manatı torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması, 18 faizi və ya 219 milyon manatı isə baytarlıq və digər kənd təsərrüfatı tədbirləri üçün nəzərdə tutulur.

2026-cı ildə qeyri-neft sektorunda investisiyaların və iqtisadi artımın dəstəklənməsi, o cümlədən enerji, qaz, su təchizatı, nəqliyyat, kənd təsərrüfatı, meliorasiya təyinatlı infrastrukturun, sosial-mədəni və digər layihələrin maliyyələşdirilməsi üçün dövlət əsaslı vəsait qoyuluşu xərclərinə 2,7 milyard manat nəzərdə tutulur.

Növbəti ildə, habelə dövlətimizin beynəlxalq aləmdə mövqeyinin qorunması və beynəlxalq öhdəliklərin yerinə yetirilməsi üçün də müvafiq təxsisatlar ayrılıb. Belə ki, ölkəmizin 85 diplomatik nümayəndəliyinin xərcləri 215 milyon manata çatdırılıb. Habelə, beynəlxalq təşkilatlara üzvlük haqları, səhm kapitalında iştirak etdiyimiz beynəlxalq maliyyə institutları qarşısında öhdəliklərin qarşılanması üçün 62 milyon manat, beynəlxalq tədbirlərin ölkə daxilində və xaricində keçirilməsi üçün 246 milyon manat vəsait proqnozlaşdırılır.

Gələn il üçün dövlət büdcəsinin yerli xərcləri 759 milyon manat həcmində proqnozlaşdırılır. Görülən tədbirlər nəticəsində regionların dövlət büdcəsindən asılılığının aradan qaldırılması tendensiyası öz tempini qoruyur. Növbəti ildə cəmi 1 rayon üçün dotasiyanın ayrılmasına ehtiyac olacaq. 2026-cı il üçün bələdiyyə büdcələrinə 13,5 milyon manat vəsait nəzərdə tutulur.

İcmal büdcəsinə gəlincə, növbəti il üçün icmal büdcənin gəlirləri 45 milyard manat, xərcləri 48,8 milyard manat, kəsiri isə 3,9 milyard manat məbləğində proqnozlaşdırılır. 2026-cı il üçün Dövlət Neft Fondunun büdcəsinin gəlirləri və xərcləri eyni səviyyədə, 13 milyard manat məbləğində nəzərdə tutulur. Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirləri 8,3 milyard manat, xərcləri 8,5 milyard manat, İcbari Tibbi Sığorta Fondunun büdcəsinin gəlirləri 2 milyard manat, xərcləri 2,6 milyard manat, İşsizlikdən Sığorta Fondunun büdcəsinin gəlirləri 238 milyon manat, xərcləri 266 milyon manat təşkil edəcək. Növbəti il üçün Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlir və xərcləri bərabər olmaqla 483 milyon manat məbləğində olacaq.

Müzakirələr zamanı çıxış edən parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, Azərbaycan müharibədən sonra hibrid təzyiqlərə və təhdidlərə məruz qalmaqdadır: "Sanki hərbi meydandakı proseslər informasiya məkanına daşınıb və biz informasiya suverenliyimizə gündəlik olaraq ciddi informasiya tullantılarının, qəsbkar təxribatlarının edildiyini görürük. Son dövrlərdə süni intellekt məhsulları ilə dövlət məmurlarının hərəkətlərini canlandıraraq, insanlar qarşısında saxta mənzərələr yaradırlar. Bu onların şəxsi həyatına, ailə həyatına, işgüzar imicinə və siyasi reputasiyasına edilən qəsdlərdir". O, belə hallarla mübarizəni gücləndirmək üçün büdcədən vəsaitin artırılmasını təklif edib.

Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov isə gələn ilin büdcəsində siyasi partiyalar üçün vəsaitin artırılmasını təklif edib. Onun sözlərinə görə, bu gün ölkədə dövlət maraqları çərçivəsində fəaliyyət göstərən partiyalar var: "AXCP və "Müsavat" kimi vətənə xəyanət edən partiyalar istisna olmaqla, digər partiyalar dövlətlə birgə, vahid mövqedə çalışırlar. Bu baxımdan siyasi partiyalara ayrılan vəsaitin də artırılması məqsədəuyğun olar".

Millət vəkili Soltan Məmmədov isə bildirib ki, Azərbaycan münaqişə sonrası humanitar proseslərdə daim məsuliyyətli mövqe nümayiş etdirir. Onun sözlərinə görə, ölkəmiz beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, azad edilmiş ərazilərdən minalardan təmizlənməsi, infrastrukturun bərpası, keçmiş məcburi köçkünlərin geri qayıdışı məsələlərində son dərəcə müdrik, qətiyyətli mövqe nümayiş etdirir: "Artıq elə bir dövr gəlib çatıb ki, Cənubi Qafqaz əməkdaşlığın, yeni sərmayə axınlarının, yaşıl enerji, nəqliyyat və mədəni diplomatiyanın mərkəzinə çevrilməlidir. Bu hədəf üçün Azərbaycan lazımı siyasi iradəni nümayiş etdirir və bütün tərəfdaşlarla əməkdaşlığa açıqdır. Bu baxımdan, bir qrup ABŞ senatorunun ədalət məhkəməsinə cəlb edilmiş erməni əsilli şəxslərə dair mövqeyi məsələyə qeyri-obyektiv yanaşmanın təzahürüdür. Bu, Azərbaycanın suveren məhkəmə proseslərinə müdaxilə kimi qiymətləndirilir. Belə yanlış bəyanatlar bölgədə sülh və sabitliyin möhkəmlənməsinə xidmət etmir, əksinə, Ermənistanın əsassız iddialarını stimullaşdırır".

S.Məmmədov qeyd edib ki, Azərbaycan tərəfi 2020-ci il 44 günlük müharibədən sonra bütün hərbi əsrlərin qarşılıqlı şəkildə geri qaytarılması öhdəliyini tam şəkildə yerinə yetirib: "Bu gün ölkəmizdə saxlananlar və barəsində hüquqi prosedurlar aparılan şəxslər hərbi əsir deyil. Onlar Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdir".

İclasda çıxış edən digər millət vəkilləri də 2026-cı ilin dövlət büdcəsi haqqında fikir və təkliflərini səsləndiriblər.

# Təhrif, yoxsa qəsd?

## "Klinqendal"ın mövqeyi ədalətsiz və beynəlxalq hüquqa ziddir

Azərbaycanın Cənubi Qafqazda sabitlik və yeni reallıqlar yaratması bir çox coğrafiyalarda fərqli reaksiyalar yaratdı - beynəlxalq hüquqa hörmət göstərən, ədalətin bərpasını arzulayan dövlət və təşkilatlar birmənalı şəkildə bu addımı dəstəklədi və gələcəkdə sülhün formalaşmasına öz töhfəsini verməyə çalışdı. Təəssüfləndirici haldır ki, bir sıra təşkilatlar, hətta qeyri-hökumət strukturları, "beyin institutu" adı altında fəaliyyət göstərən, amma birtərəfli fikir yürüdən qurumlar sülhə töhfə verməkdənsə, qeyri-adekvat yol seçiblər. Bu kimi təşkilatlar həqiqəti təhrif etməyi, şəxsi və ya tərəfkeşlik mülahizələri üzərindən fikir yürütməyi "seçir" - Niderlandın Beynəlxalq Münasibətlər İnstitutu - "Klinqendal" (The Netherlands Institute of International Relations Clingendael) kimi...

BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

## "Klinqendal": Paşinyanın və Mirzoyanın sevimli "məkanı"...

Öncə qeyd edək ki, bu qurum Niderlandın Haaqa yaxınlığında yerləşən müstəqil beynəlxalq münasibətlər üzrə tədqiqat institutu sayılır. Klinqendal həm tədqiqat (Clingendael Research), həm də diplomatiya/treninqlər (Clingendael Academy) üzrə proqramlar həyata keçirir. İnstitutun missiyası əslində hökumətlərə, beynəlxalq təşkilatlara, biznesə və vətəndaş cəmiyyətinə siyasət analizləri, təlim və məsləhətçilik təqdim etməklə "təhlükəsiz, davamlı və ədalətli dünya"ya töhfə vermək olsa da, Ermənistana münasibətdə tamam fərqli münasibətin şahidi oluruq. Bu qurumun xüsusi Ermənistan pərəstişkarlığı "hansısa sirrdən" qaynaqlanır. Məsələn, Ermənistanın baş naziri 2022-ci ilin mayında Niderlanda səfər edən zaman "Klinqendal"ı da ziyarət etmiş, hətta orada "Ermənistan və Niderland: Əsrlər boyu davam edən dostluq - 30 illik tərəfdaşlıq" mövzusunda mühazirə belə oxumuşdu. 2024-cü ilin fevralında isə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan "Klinqendal"ın keçirdiyi dəyirmi masa müzakirəsində iştirak etmişdi. İnstitut 2023-cü ilin martında Cənubi Qafqazdakı durum və Aİ-nin təsirləri barədə hesabat hazırlamışdı. Bu hesabatda da müəyyən fikirlər vardı ki, bunlar birmənalı şəkildə Ermənistanın lehinə yönəlmişdi.



## Qeyri-dəqiqlik, hüquqi cəhətdən yanlış interpretasiyalar və ciddi analitik boşluqlar...

Bu dəfə də institut öz ampulasına sadiq qalıb. Belə ki, "Klinqendal" tərəfindən dərc olunmuş "Ermənistan və Azərbaycan: Sülh, yoxsa fasilə?" sərlövhəli siyasi icmal da həqiqətləri əks etdirmir. Qurum növbəti dəfə Cənubi Qafqaza baxışda birmənalı şəkildə ermənipərəst mövqe bildirib. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) bu fikirlərə münasibət bildirib. Qeyd olunub ki, mərkəz yanlış və hüquqi baxımdan qeyri-dəqiq təqdim olunan beynəlxalq təhlillərə etiraz edərək, Azərbaycan-Ermənistan münasibətlərində dəqiqlik, aydınlıq və beynəlxalq hüquqa riayət olunmasının vacibliyini vurğulayır: "BMTM olaraq biz beynəlxalq tədqiqat institutlarının Cənubi Qafqaz məsələlərinə dair informativ təhlil hazırlamasını və konstruktiv dialoqun təşviqində uzunmüddətli rolunu yüksək qiymətləndiririk. Məhz bu peşəkar əməkdaşlıq ruhundan irəli gələrək Niderlandın Beynəlxalq Münasibətlər İnstitutu - "Klinqendal"ın "Ermənistan və Azərbaycan: Sülh, yoxsa fasilə?" adlı siyasət icmalını diqqətlə nəzərdən keçirdik. Ətraflı təhlil nəticəsində müəyyən etdik ki, sənəddə yer alan bəzi ifadələr və qiymətləndirmələr faktiki qeyri-dəqiqliyə, hüquqi cəhətdən yanlış interpretasiyalara və ciddi analitik boşluqlara yol açır. Bu isə Azərbaycan-Ermənistan münasibətlərinin dinamikasına dair yanlış təsəvvürlərin formalaşması riskini yaradır".

BMTM-in şərhində vurğulanır ki, sözügedən məsələyə dair hazırlanan ətraflı cavab yalnız təhriflərə etirazı ifadə etməklə məhdudlaşmır. "Bu, həm də həssas dövlətlərarası məsələlərin müzakirəsində aydınlıq, dəqiqlik və beynəlxalq hüquqi normalara riayət olunmasını təmin etmək kimi institutional məsuliyyətimizdən irəli gəlir. İcmalda qeyri-qanuni "ələ keçirmə" mənasını verən terminlərin işlədilməsi, "Azərbaycanın Ermənistan ərazisini işğal etməsi" kimi təqdimatlar, Azərbaycanın tranzit təkliflərinin "ekstraterritorial" kimi göstərilməsi, eləcə də Qarabağ regionunda baş vermiş əhali yerdəyişmələrinin hüquqi əsasları olmayan terminlərlə təsvir edilməsi yanlış narrativlərin güclənməsinə rəvac verə bilər. Eyni zamanda, icmalda normallaşma ilə bağlı aparılan danışıqların şərhi, ATƏT-in Minsk qrupunun statusu, Ermənistanın konstitusiya ilə bağlı əks iddiaları, qarşılıqlı dövlət iddialarının hüquqi əsası və TRIPP-lə bağlı nəticələr tərəflərin

## Aydınlıq, dəqiqlik və beynəlxalq hüquqi normalara riayət olunmasını təmin etmək...

mövcud rəsmiləşdirilmiş mövqeləri ilə tam uyğun gəlmir", - deyə BMTM-in açıqlamasında vurğulanır. Qeyd olunur ki, beyin mərkəzləri və siyasət araşdırmaları institutları beynəlxalq rəyin formalaşmasında, diplomatik qərarvermə proseslərində mühüm rol oynayırlar. Bu səbəbdən, terminologiya və kontekstdə dəqiqlik vacibdir: "Siyasi təhlil, hətta heç bir qəsd nəzərdə tutulmadığı halda belə, təsdiqlənmiş faktlardan və dövlətlərarası münasibətləri tənzimləyən hüquqi çərçivələrdən uzaqlaşdıqda davamlı sülhün təmin olunması üçün vacib olan şərtlərə zərər verə, maraqlı tərəflər arasında çaşqınlıq yarada və davam etməkdə olan proseslərin pozulmasına səbəb ola biləcək təhriflərin güclənməsinə gətirib çıxara bilər. Həm yuxarıda qeyd edilən səbəblərə, həm də ciddi faktlara əsaslanan tədqiqatların önəmini nəzərə alaraq, biz yanlış təfsirlərin qarşısını almaq məqsədilə "aydınlaşdırıcı sənəd" (clarification document) hazırlamışıq. Biz "Klinqendal", eləcə də digər tədqiqat institutları ilə açıq və peşəkar dialoqa sadiq qalırıq. İnanırıq ki, dəqiqlik və qarşılıqlı hörmətə əsaslanan birgə səylər davamlı sülhün və regional sabitliyin təmin edilməsində vacibdir".

***SADİQ***

# Təqaüd sistemində yenilik...

## Hökumətin yeni qaydaları bu sahədə əlçatanlığın artırılmasını təmin edəcək

Nazirlər Kabineti (NK) "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda dəyişikliklər edib. Dəyişikliyə əsasən, əmək pensiyasının yenidən hesablanması işləyən əmək pensiyaçısının fərdi şəxsi hesabının sığorta hissəsində müraciət tarixinə toplanmış pensiya kapitalına əsasən həmin tarixdən, işləməyən əmək pensiyaçısına münasibətdə isə şəxsin işləməyən əmək pensiyaçısı kateqoriyasına keçdiyi gündən, lakin müraciət edilən tarixdən əvvəlki ən çoxu üç il üçün ödənilməklə həyata keçiriləcək. Qulluq stajına görə, təyin edilən əmək pensiyasına əlavələri 50 faiz həcmində ödənilən və ya dayandırılmış şəxslərin işdən azad olunması ilə əlaqədar onların əmək pensiyasının əməkhaqqı isə (dövlət məvacibi yenidən hesablanmaqla təmin olunacaq.

### Güzəştli şərtlərlə pensiya alan şəxslərin sırası genişlənəcək

Yeni dəyişikliklərin əsas mahiyyəti daha tez pensiyaya çıxanların siyahısında dəqiqləşdirilmələr aparılmaqla, güzəşt hüququna malik şəxslərin bu siyahıya əlavə edilməsini nəzərdə tutur. Belə ki, qızıl otağının nəzarətçiləri və emal, qırma, daşıma, qələviləşdirmə sahələrində nəzarətçilər əlavə olunmaqla mühəndislər, o cümlədən elektrik mühəndisləri ilə yanaşı, metallurqlar güzəştli siyahıya daxil ediliblər. Əvvəlki qanunvericilikdə onlar üçün bu güzəşt imkanları nəzərdə tutulmamışdı və "Əmək pensiyaları" haqqında qanunun müvafiq maddələri onlar üçün güzəşti təsbit etsə də, qaydalardakı nizamsızlıqlar bu imkanların onlara şamil edilməsini əngəlləyirdi.

"Əmək pensiyaları" haqqında qanunun 9-cu maddəsinə əsasən, axırıncı iş yerindən asılı olmayaraq, güzəştli şərtlərlə yaşa görə əmək pensiyası almaq hüququ verən incəsənətin xüsusi sahələrinin, yeraltı, əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərin Nazirlər Kabinetinin təsdiq etdiyi siyahısında nəzərdə tutulan işlərdə azı 12 il 6 ay çalışmış kişilərin və azı 10 il çalışmış qadınların yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ var. Bu hüququn reallaşması üçün həmin vətəndaşlarımızın işlədiyi müəssisə üzrə işəgötürən tərəfindən arayışa təqdim edilməsi zəruri hesab edilir. Reallıq isə bundan ibarətdir ki, bir çox hallarda həmin müəssisələrin fəaliyyətini dayandırması səbəbindən arayışların alınmasında çətinliklər meydana çıxır, nəticədə, vətəndaşlar öz pensiya hüquqlarından istifadə etməkdə çətinliklərlə üzləşirdilər. Yeni dəyişikliklər isə bu halları və maneələri tamamilə aradan qaldırmış olur. Belə ki, tələb edilən həmin arayışın təqdim edilməsi mümkün olmadıqda, şəxsin işləmiş olduğu peşənin Nazirlər Kabinetinin təsdiq etdiyi "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"na uyğunolma prosedurlarına cavab verməsi kifayət edir. Yəni, NK-nın təsdiqlədiyi sözügedən siyahının tələbləri artıq arayışla bağlı aktı təsdiqedici sənəd kimi qanuniləşdirir. Nəticədə, bu hüquqi mexanizm əsasında vətəndaşın müvafiq iş dövrü güzəştli iş stajına daxil edilməklə, onun erkən pensiya hüququ qazanması təsbit olunacaq. Bu proseslərin qanuniləşdirilməsi elektron resursda da öz həllini tapacaq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) inteqrə olunduğu elektron bazadakı "Əmək və Məşğulluq" altsistemində güzəştli sahəyə aid iş stajının hesablanması bölməsində qeyd edilən güzəşt hüququ əks etdiriləcək.

**Yeni dəyişikliklərə əsasən, qulluq əlavəsi alan və işləməkdə davam edən şəxslərin əmək pensiyası hesablanarkən əməkhaqqı və ya pensiya kapitalı əsasında hesablanan pensiya məbləğlərindən hansı daha yüksək olarsa, vətəndaşa həmin yüksək məbləğ təyin olunacaq. Bu isə həmin şəxslərin pensiya məbləğində artımları təmin edəcək**

Bir məqamı da qeyd edək ki, NK-nın bir müddət əvvəl təsdiq etdiyi "Əmək pensiyaları haqqında" qanuna dəyişikliklərlə bağlı qərarına əsasən, əmək pensiyalarının təyin edilməsi, təyin olunmasından imtina edilməsi, yenidən hesablanması, dayandırılması, bərpası və bir növdən başqa növə keçirilməsi prosedurları və qərarlarda göstərilən məlumatların toplanması rəqəmsal platformada təsnifləşdiriləcək. Əmək pensiyalarına dair bütün əməliyyatlar kargüzarlıqdan tamamilə uzaqlaşdırılmaqla, tam rəqəmsal keçidə inteqrasiya olunaraq Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim və ya əldə ediləcək.

Pensiya prosesləri üzrə elektronlaşdırmanın genişlənməsi sayəsində



### Bəzi kateqoriyalar üzrə də pensiya məbləğləri artacaq

ailədə pensiya alan şəxslərdən birinin qanunla müəyyən edilmiş qaydalara uyğun olaraq digər ailə üzvünə pensiya təyinatını ötürməsi, dəyişdirməsi, habelə təqaüd növünün dəyişdirilməsi, eləcə də pensiyaya çıxmaq istəyənlər üçün zəruri imkanlardan faydalanması da mümkün olacaq. Bu təyinat dəyişiklikləri isə bir çox hallarda əmək pensiyalarının yenidən hesablanması mexanizmi əsasında bəzi kateqoriyalar üzrə ümumi pensiya məbləğlərinin də artırılmasına imkan verəcək.

### 2026-cı ildə orta aylıq pensiyanın 590 manata çatacağı gözlənilir

Bundan başqa, yeni dəyişikliklərə əsasən, qulluq əlavəsi alan və işləməkdə davam edən şəxslərin əmək pensiyası hesablanarkən əməkhaqqı və ya pensiya kapitalı əsasında hesablanan pensiya məbləğlərindən hansı daha yüksək olarsa, vətəndaşa həmin yüksək məbləğ təyin olunacaq. Bu isə həmin şəxslərin pensiya məbləğində artımları təmin edəcək.

Yeri gəlmişkən, dəyişikliklərdən sonra güzəşt hüququnu əldə edən şəxslərin pensiyalarının indeksasiyası gələn ilin yanvar ayında digər əmək pensiyaçılarında olduğu qaydada indeksasiya edilərək artırılacaq. Onların orta aylıq pensiyası da ölkə üzrə əmək pensiyasının orta məbləğinə uyğun olacaq. 2026-cı ildə orta aylıq pensiyanın məbləğinə gəlincə, hökumətin proqnozlarına görə, bu rəqəm təxminən 590 manata bərabər gözlənilir. Yaşa görə orta aylıq pensiyanın məbləği isə 629 manat həddində fərz edilir.

Beləliklə, əmək qanunvericiliyinə edilən yeni qaydalar daha tez pensiyaya çıxmaqla bağlı prosedurların daha da sadələşdirilməsinə səbəb olmaqla, əlçatanlığın artırılmasını təmin edəcək.

*E.CƏFƏRLİ*

# Manatın məzənnəsi sabit qalacaq




## "Fitch Solutions": Ehtiyatlı monetar siyasət, güclü valyuta ehtiyatları manatın sabitliyinin qorunmasını təmin edəcək

Dünyanın nüfuzlu iqtisadi institutlarından olan "Fitch Group" aid olan "Fitch Solutions" şirkəti Azərbaycanla bağlı açıqladığı yeni hesabatında pul-kredit, monetar və maliyyə sabitliyinin vəziyyəti və proqnozlarını şərh edib. Qurumun ekspertlərinin qənaətinə görə, Azərbaycan manatının ABŞ dollarına qarşı məzənnəsi 2026-cı ildə 1,7 səviyyəsində qalacaq və yaxın dövrdə məzənnə dəhlizində ciddi dəyişikliklər gözlənilmir. Güclü xarici şoklar baş vermədiyi halda manatın məzənnəsinin kəskin dəyişikliyinə səbəb olacaq amillər üçün əsaslar yoxdur. Proqnoza əsasən, Mərkəzi Bank inflyasiya təzyiqlərinin yüksək olmasına baxmayaraq, ümumilikdə qiymət sabitliyini təmin etməklə ehtiyatlı siyasət yürüdür. Bu isə məzənnə sabitliyini dəstəkləyən əsas amillərdən biri kimi mühüm yer tutur.

"Fitch Solutions"un qənaətinə görə, manatın dollara qarşı sabit qalması ölkədə investorların etimadını gücləndirir və uzunmüddətli iqtisadi planlaşdırmanı asanlaşdırır. Eyni zamanda, avronun nisbətən ucuzlaşması ölkənin Avropa ilə ticarətində qiymət rəqabətliliyini artırmaq üçün əlverişli şərait yarada bilər.

### Uçot dərəcələri yüksəlməyəcək

Makroiqtisadi perspektivlərə nəzərən, manatın sabit qalması inflyasiya göstəricilərinə də müsbət təsir göstərəcək. Əgər valyutanın məzənnəsi kəskin dəyişməsə, idxal olunan məhsulların qiymətində ciddi artım müşahidə olunmayacaq və nəticədə istehlak bazarında sabitlik qorunacaq. Bu, həm də əhalinin alıcılıq qabiliyyətinin qorunmasına xidmət edəcək. Analitiklərin qənaətinə görə, manatın kursunda ciddi dalğalanmalar gözlənilmir və 2030-cu ilə qədər milli valyutanın sabitliyi qorunacaq.

Ümumilikdə, Azərbaycanda yürüdülən məzənnə siyasəti "üzən məzənnə"yə keçidə əsaslanmaqla xarici valyutalar qarşısında öz dayanıqlılığını qoruyub saxlamağa qadirdir. Bu isə Azərbaycan iqtisadiyyatına inamı formalaşdırmaq, daxili və xarici investisiyaları cəlb etmək baxımından sabit məzənnə rejimi mühüm əhəmiyyət kəsb edir.

"Fitch Solutions" Azərbaycanda uçot siyasəti ilə bağlı da nikbin rəy verib. Qurumun ekspert icmasının fikrincə, 2026-cı ilin sonuna qədər MB-nin uçot dərəcəsini azaldacağı proqnozlaşdırılır. Mərkəzi Bank 2026-2027-ci illərdə ehtiyatlı, məlumat təhlilinə əsaslanan pul-kredit siyasətinə sadiq qalacaq. Ehtimallara əsasən, əsas faiz dərəcəsi 2025-ci ilin sonuna qədər 6,75 faizə, 2026-cı ilin sonuna qədər isə 6,5 faizə, (əvvəlki gözlənti 6,25 faiz olub) enəcək.

**Proqnozlara görə, 2025-ci ildə avro/AZN məzənnəsi 1,77 manat səviyyəsində olacaq. 2026-cı ildə bu göstərici 1,75 manata enəcək, 2027-ci ildə isə 1,73 manata qədər aşağı düşəcək. 2028-2029-cu illərdə Avro/AZN məzənnəsi eyni səviyyədə qalacaq və beləliklə, avronun manat qarşısında tədrici ucuzlaşması müşahidə olunacaq**

### "Economist Intelligence Unit"in proqnozları ümidvericidir

Azərbaycanda milli valyuta olan manatın məzənnəsi ilə bağlı "The Economist Group"un araşdırma və təhlil bölməsi olan "Economist Intelligence Unit"in (EIU) ehtimalları da müsbətdir. Qurumun proqnozlarına görə, 2024-2029-cu illər manatın ABŞ dolları qarşısında kursu sabit qalacaq, avro isə manat qarşısında nisbətən ucuzlaşacaq. Dollar/AZN məzənnəsi 2025-2029-cu illər ərzində 1,70 səviyyəsində stabilliyini qoruyacaq. Bu, Mərkəzi Bankın manatın sabitliyini təmin etmək siyasəti ilə uzlaşır və ölkədə maliyyə sabitliyi üçün mühüm göstərici hesab olunur. Analitiklər bildirirlər ki, manatın dollara nisbətdə sabit qalması həm inflyasiya risklərinin idarə edilməsinə, həm də ölkəyə sərmayələrin cəlb olunmasına müsbət təsir göstərəcək.

Avro qarşısında isə manatın dəyərində nisbətən eniş müşahidə olunacaq. Proqnozlara görə, 2025-ci ildə avro/AZN məzənnəsi 1,77 manat səviyyəsində olacaq. 2026-cı ildə bu göstərici 1,75 manata enəcək, 2027-ci ildə isə 1,73 manata qədər aşağı düşəcək. 2028-2029-cu illərdə Avro/AZN məzənnəsi eyni səviyyədə qalacaq və beləliklə, avronun manat qarşısında tədrici ucuzlaşması müşahidə olunacaq.

Analitiklər vurğulayırlar ki, manatın sabitliyinin qorunması yalnız Mərkəzi Bankın siyasətindən asılı deyil. Azərbaycanın makroiqtisadi göstəriciləri, xarici ticarət balansı, valyuta ehtiyatlarının səviyyəsi və maliyyə bazarlarının möhkəmliyi də valyutanın sabitliyində mühüm rol oynayır. EIU hesab edir ki, ölkənin dollar ehtiyatlarının kifayət qədər olması, habelə xarici valyuta gəlirlərinin stabil olması manatın gələcəkdə də sabit qalmasına şərait yaradacaq.

### Mərkəzi Bankın gözləntiləri

Mərkəzi Bankın pul siyasəti qərarları da manatın sabitliyinin uzunmüddətli olacağına dair ehtimalları gücləndirir. MB-nin bəyanatına əsasən, cari ilin ötən 10 ayı ərzində manatın ABŞ dollarına nəzərən rəsmi məzənnəsi orta günlük 1,7 manat təşkil edib. Yəni banklar tərəfindən müəyyən edilən xarici valyutanın alış-satış məzənnələri rəsmi məzənnəyə yaxın diapazonda hərəkətdə olub. 2025-ci ilin sonunda və növbəti ildə də pul siyasətinin ötürücülüyündə məzənnə kanalı alətləri də başlıca rol oynayacaq. Belə ki, manatın nominal effektiv məzənnəsi inflyasiya idxalına əhəmiyyətli təsir göstərən amillərdən biri olaraq qalacaq.

İkitərəfli məzənnələr üzrə proqnozları əsasında aparılan son hesablamalara görə, 2026-ci ildə də manatın nominal effektiv məzənnəsi möhkəmlənmə istiqamətində dəyişəcək. Qiymət sabitliyinin başlıca xətti manatın ABŞ dollarına nəzərən ikitərəfli məzənnəsi banklararası əqdlər üzrə orta məzənnə əsasında müəyyən ediləcək. Mərkəzi Bankda Dövlət Neft Fondunun valyuta satışlarının həyata keçirilməsi üzrə hərraclarının keçirilməsi davam etdiriləcək. Əvvəlki illərin təcrübəsinə uyğun olaraq dövlətin valyuta tələbi və təklifinin dəyişimindən asılı olaraq Mərkəzi Bank valyuta bazarında valyuta satışı və alışları həyata keçirə bilər.

*E.CƏFƏRLİ*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti üzrə hazırlanmışdır**

# Sahibkarların iştirakı ilə...

## KOBİA-nın təşkilatçılığı ilə ictimai müzakirə keçirilib

*Səlim*

Bu gün dövlət siyasətinin prioritet istiqamətlərindən biri ölkə iqtisadiyyatına investisiyaların cəlb olunması, əlverişli biznes mühitinin yaxşılaşdırılmasıdır. Qeyri-neft sektorunun inkişafı, biznes və investisiya mühitinin əlverişliliyinin daha da artırılması, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin əsas prioritetlərindəndir.

Eyni zamanda dövlətin sahibkarlara verdiyi maliyyə dəstəyi - güzəştli kreditlərin ayrılması, investisiya təşviqi mexanizmləri, kredit zəmanəti fondlarının fəaliyyətinin genişləndirilməsi özəl sektorun daha fəal şəkildə iqtisadi proseslərə qoşulmasına şərait yaradır. Bu, həm də regionlarda yeni iş yerlərinin açılmasına, yerli istehsalın güclənməsinə və ixrac potensialının artmasına xidmət edir.

Bütün bu tədbirlər göstərir ki, ölkəmizdə aparılan iqtisadi siyasətin mərkəzində məhz sahibkarların dəstəklənməsi, biznes mühitinin müasirləşdirilməsi və innovativ iqtisadiyyatın qurulması dayanır. Bu isə Azərbaycanın yaxın illər üçün müəyyən etdiyi inkişaf hədəflərinə nail olunmasında mühüm rol oynayır.






Bugünlərdə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yanında İctimai Şuranın təşkilatçılığı ilə "Sahibkarların fəaliyyət mühitinin təkmilləşdirilməsi, biznes infrastrukturlarının müasir tələblərə uyğunlaşdırılması" mövzusunda ictimai müzakirə təşkil olunub. Tədbirdə şəhərsalma ilə bağlı görülən işlər və sahibkarlar üçün yeni biznes imkanlarına dair fikir mübadiləsi aparılıb. Müzakirədə aidiyyəti dövlət qurumlarının nümayəndələri və ticarət sahəsində fəaliyyət göstərən 100-ə yaxın sahibkar iştirak edib. İctimai müzakirə şəhərsalmanın yenilənməsi çərçivəsində sahibkarların fəaliyyət mühitinin təkmilləşdirilməsi və biznes infrastrukturunun müasir tələblərə uyğunlaşdırılması məqsədilə keçirilib.

KOBİA yanında İctimai Şuranın sədri Emin Dostiyari şəhərsalma prosesinin sahibkarların fəaliyyətinə təsiri, bu istiqamətdə onların fikir və təkliflərinin öyrənilməsinin əhəmiyyətini qeyd edib. Bildirilib ki, ictimai müzakirələr qərarların hazırlanması prosesinə praktiki töhfə verir və sahibkarlığın inkişafı üçün daha uyğun mühitin formalaşdırılmasında faydalıdır. KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov şəhərsalma sahəsində aparılan yeniliklər fonunda biznes infrastrukturunun müasirləşdirilməsi və sahibkarların fəaliyyət mühitinin yaxşılaşdırılmasının vacibliyini qeyd edib. Bildirilib ki, yenilənən şəhərsalma modeli sahibkarların daha funksional, təhlükəsiz və müasir ticarət məkanlarında fəaliyyət göstərməsi üçün yeni imkanlar yaradır. KOBİA bu prosesdə sahibkarlara təşkilati və məlumatlandırıcı dəstək göstərir.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) İdarə Heyətinin sədri Anar Rzayev şəhər nəqliyyatı və yük axınlarının tənzimlənməsi ilə bağlı aparılan yenilənmə tədbirləri barədə məlumat verib. Qeyd olunub ki, hazırda Abşeron Ticarət Mərkəzinin ərazisində fəaliyyət göstərən avtovağzalda gündəlik olaraq Salyan, Neftçala, Astara, Lənkəran, Şirvan da daxil olmaqla ümumilikdə 30-a yaxın istiqamət üzrə təxminən 115 reyslə 700-dən artıq şəxsə xidmət göstərilir.

Bakı Şəhər Ticarət və Xidmət Departamentinin direktor müavini Mövsüm Hüseynov paytaxtda ticarət və xidmət infrastrukturunun yenilənməsi, mövcud ticarət məkanlarının müasirləşdirilməsi zamanı biznes subyektlərinin fəaliyyəti üçün alternativ imkanların təmin olunması barədə məlumat verib.

Azərbaycan Biznesinin İnkişafı Fondunun (ABİF) baş direktoru Emin Şirinov bildirib ki, fond iqtisadiyyatın prioritet sahələri üzrə fəaliyyət göstərən sahibkarlara müxtəlif maliyyə dəstək mexanizmləri təqdim edir. Həmçinin qeyd edib ki, fond sahibkarların fəaliyyət mühitinin təkmilləşdirilməsinə və rəqabətədavamlı iqtisadi mühitin formalaşmasına xidmət edən layihələri dəstəkləməyə hazırdır.

Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəis müavini Pərvin Səfərəliyev yükdaşımaların intensivliyinin şəhər yollarında yaratdığı sıxlığın aradan qaldırılması, eləcə də nəqliyyat axınının tənzimlənməsi və sürücülərin təhlükəsiz hərəkəti üçün görülən tədbirlər barədə məlumat verib.

"Azərbaycan Sığortaçılar Assosiasiyası" İctimai Birliyinin icraçı direktorunun müşaviri Məmməd Ağayev yenilənən biznes infrastrukturunda risklərin idarə edilməsi, sığortanın önəmi barədə fikirlərini bölüşüb.

Sonra Abşeron Ticarət Mərkəzinin nümayəndəsi Erhan Topkaya ticarət mərkəzinin sahibkarlıq fəaliyyəti üçün təqdim etdiyi imkanlarla bağlı təqdimatla çıxış edib, sahibkarların təklifləri dinlənilib və sualları cavablandırılıb.

# Qiymətləndiricilərin əməkdaşlıq platforması

## Beynəlxalq forumda birgə təcrübələrin öyrənilməsi və mübadiləsi barədə razılıq əldə olunub

Bakıda Azərbaycan Qiymətləndiricilər Palatasının təşəbbüsü ilə Beynəlxalq Qiymətləndirmə Forumu keçirilib. Müxtəlif ölkələrin qiymətləndirmə palatalarının və cəmiyyətlərinin rəhbər şəxslərinin iştirak etdiyi tədbirdə regional əməkdaşlıq imkanları, yeni istiqamətlər üzrə standartlaşdırma çərçivəsi, 2026-2027-ci illər üçün ortaq standart proqramı və digər məsələlər müzakirə olunub. Habelə forumda qiymətləndirmə təşkilatları, biznes icması, iqtisadi assosiasiyalar arasında yeni əməkdaşlıq formatlarının qurulması, əlaqələrin birləşdirilməsi barədə fikir mübadilələri aparılıb. Həmçinin milli qiymətləndirmə standartlarının beynəlxalq standartlara uyğunlaşdırılması ilə bağlı təkliflər səsləndirilib, bu istiqamətdə koordinasiya və əməkdaşlığın gücləndirilməsi qərara alınıb.

### Peşəkar qiymətləndiricilərlə əməkdaşlıq qurulur

Azərbaycan Qiymətləndiricilər Palatasının sədri Nüsrət İbrahimov bildirib ki, ölkə iqtisadiyyatının inkişafında maliyyə sektorunun əhəmiyyəti mühüm rol oynayır. Həmin sektorun aparıcı seqmenti olan qiymətləndirmə fəaliyyəti maliyyə ilə bağlı məlumatların əlçatanlığı və əhatəliliyi bir çox sahələrdə dəqiq bazar indikatorlarını əldə edilməsinə imkan verir. Daşınar, daşınmaz əmlaklar, qeyri-maddi aktivlər və sair mülki hüquqların qiymətləndirilməsi və digər əməliyyatlarda qiymətləndiricilərin fəaliyyəti birbaşa həqiqi göstəriciləri təyin edir. İqtisadiyyatın bir sıra sahələrində olduğu kimi, qiymətləndirmə fəaliyyətinin əhatə etdiyi sahədə statistik məlumatların əlçatan olması, bu məlumatların online rejimdə bazar indikatorlarına çevrilməsi müxtəlif kommersiya və maliyyə qurumlarına zəruri baza informasiyalarını dəqiqləşdirməyə kömək edir. Bu sahəyə nəzarət edən palata keyfiyyətli qiymətləndirmə xidmətlərinə olan tələbatın ödənilməsi, qiymətləndirmə fəaliyyətində keyfiyyətə nəzarətin dəstəklənməsinə töhfə verir. Eləcə də qiymətləndirmə fəaliyyəti şəffaflığın təmin olunması və beynəlxalq standartlara uyğun müasir sistemin yaradılmasına imkan yaradır. Azərbaycan maliyyənin bütün sahələrində olduğu kimi qiymətləndirmə fəaliyyətində peşəkar qiymətləndiricilər, xarici ölkələrin kadrları ilə əməkdaşlığa önəm verir. Bu baxımdan region ölkələrinin qiymətləndirmə qurumlarının peşəkar mütəxəssisləri ilə bir araya gəlmək, onların iştirakıyla təlim və sertifikasiya proqramları təşkil etmək beynəlxalq təcrübələri mənimsəməkdə mühüm körpü rolunu oynayır.



Ankara Universitetinin professoru, beynəlxalq ekspert Harun Tanrıvermiş qeyd edib ki, türk dövlətlərinin qiymətləndirmə fəaliyyəti fərqli olsa da, ümumi yanaşma oxşardır. Belə ki, hər bir ölkənin qiymətləndirici strukturları daşınar əmlak, maşın və avadanlıqlar, nəqliyyat vasitələri, daşınmaz əmlak, o cümlədən torpaq sahələri, mədəni irs nümunələri və təbii sərvətlər, tarix, mədəniyyət və təbiət abidələri, qeyri-maddi əmlak və əqli mülkiyyət və digər istiqamətlər üzrə qiymətləndirmə fəaliyyəti həyata keçirdiyindən həmin sahələrdəki yeniliklər hər biri üçün əhəmiyyət kəsb edir. Bu baxımdan, türk dövlətləri müasir dövrdə maliyyə şəffaflığı və hesabatlılığın xüsusi ön plana çıxdığı çağırışlara uyğun olaraq qarşılıqlı fəaliyyətin birləşdirilməsini daha vacib hesab edir. Bu baxımdan qiymətləndiricilər arasında əməkdaşlıq planları əsas etibarilə qiymətləndirmə sektorunun inkişafında birgə təcrübələrin bölüşdürülməsi, bu sahədə maliyyə hesabatlarının təqdim edilməsinin yeni standartlarının hazırlanması və mübadiləsi, şəffaflıq üzrə yeni tətbiqlərin əlaqələndirilməsi və digər sahələri əhatə etməlidir.

**Qiymətləndiricilər arasında əməkdaşlıq planları əsas etibarilə qiymətləndirmə sektorunun inkişafında birgə təcrübələrin bölüşdürülməsi, bu sahədə maliyyə hesabatlarının təqdim edilməsinin yeni standartlarının hazırlanması və mübadiləsi, şəffaflıq üzrə yeni tətbiqlərin əlaqələndirilməsi və digər sahələri əhatə etməlidir**

Gürcüstan Qiymətləndiricilər Assosiasiyasının prezidenti, Avropa Biznesin Qiymətləndirilməsi Standartları Komitəsinin və Avropa Daşınmaz Əmlakın Qiymətləndirilməsi Standartları Komitəsinin üzvü Nino Beraiala bildirib ki, regionun qiymətləndirici şirkət və palatalarının bu cür görüşlərinin keçirilməsi bu sektorun davamlı inkişafına, həmçinin qiymətləndirici təşkilatların qarşılaşdıqları məsələlərin operativ şəkildə həllinə xidmət edir.

Onun fikrincə, qiymətləndirmə fəaliyyətinin təkmilləşdirilməsi, peşə standartlarının yüksəldilməsi bazarda şəffaflığın artırılmasında mühüm rol oynayır. Bu cür təşəbbüslər nəticədə ölkə iqtisadiyyatının müxtəlif sektorlarında daha dəqiq, şəffaf və effektiv qiymətləndirmə mexanizmlərinin qurulmasına səbəb olacaq.

Qırğızıstan Qiymətləndiricilər İttifaqının sədri Sovetbek Zakirov vurğulayıb ki, qiymətləndirmə sahəsində əməkdaşlıqlar əmlak və digər maliyyə bazarındakı əməliyyatların və qiymətqoymanın daha şəffaf şəkildə təyin edilməsinə töhfə verir.

### Əmlak bazarında şəffaf qiymətləndirmə

Qazaxıstan Milli Qiymətləndirmə Palatasının rəhbəri Mirzabek Amanbayev qeyd edib ki, qiymətləndiricilər arasında faydalı və qarşılıqlı təmasların artırılmasına, koordinasiyalı fəaliyyətin təşkilinə ehtiyac vardır. Peşəkar qiymətləndiricilərin bilik və bacarıqlarının artırılması baxımından bu cür platformalar mühüm əhəmiyyət kəsb edir. Bu əməkdaşlıq qiymətləndirmə fəaliyyəti sahəsində birgə təcrübələrin mənimsənilməsi, rəqəmsal həllərin qiymətləndirilməsi sahəsində mübadilələrin qurulmasını təmin edə bilər.

***E.CƏFƏRLİ***

# Qara dənizdə təhlükə...

Dörd ildir ki, davam edən Rusiya-Ukrayna müharibəsinin dağıdıcı təsirləri yalnız bu iki ölkənin sərhədlərini əhatə etmir. Müharibə səngimədikcə ondan təsirlənən coğrafiyalar da genişlənir. Artıq ayrı-ayrı ölkələrin sahillərini yuyan Qara dənizin uzaq nöqtələri də təhlükəsiz hesab olunmur. Proseslərin gedişi, son günlərdə baş verən hadisələr və coğrafi yerləşməsinin strateji önəmi onu deməyə əsas verir ki, Qara dənizdə ciddi təhlükə riskləri var və sututarın perspektivdə yeni geosiyasi savaş meydanına çevrilməsi ehtimalı kifayət qədər böyükdür.

## Gəmilərə ardıcıl hücumlar

Müharibə təzə başlayanda Qara dənizdə ticarət gəmilərinə hücumlar əsasən Ukraynaya yaxın sahil sularında qeydə alınırdı. Bu səbəbdən Ukraynadan və Rusiyadan kənd təsərrüfatı məhsullarının ixracına ciddi təhdidlər yaranmışdı. Qlobal ərzaq təhlükəsizliyi nəzərə alınmaqla ayrı-ayrı ölkələrin iştirakı və Türkiyənin vasitəçiliyi ilə uzun sürən taxıl sövdələşmələri diplomatiyası hələ də yaddaşlardan çıxmayıb. Məhz gərgin diplomatik səylərin nəticəsi olaraq bir müddət Qara dəniz vasitəsi ilə dünya bazarına taxıl tədarükünü həyata keçirmək mümkün oldu.



Son günlərdə isə çalxalanan Qara dənizdə gəmilərə hücumların yeni dalğası başlayıb. Ötən həftə Türkiyə sahilləri yaxınlığında Qambiya bayrağı altında üzən və Rusiyaya yollanan iki neft tankeri - "Kairos" və "Virat" hücuma məruz qalıb. Üstəlik, "Virat "gəmisi iki dəfə zərbə alıb. Rəsmi məlumatlarda qeyd olunur ki, hər iki gəmi xarici təsirə məruz qalıb.

Hücumlara görə məsuliyyəti Ukraynanın Təhlükəsizlik Xidməti və ölkənin Hərbi Dəniz Qüvvələri öz üzərinə götürüb. Gəmilər uzaq məsafə qət edə bilən pilotsuz dəniz aparatları - "Sea Baby" ilə vurulub. Hücumda ən azı beş belə aparat iştirak edib.

Qeyd edək ki, oktyabr ayında Ukrayna "Sea Baby" qurğularının yeni versiyalarını təqdim edib. Modernləşdirilmiş aparatların uçuş məsafəsi və yükdaşıma qabiliyyəti artırılıb. Daha güclü mühərriklərlə təchiz edilmiş pilotsuz katerlərin məsafəsi 1500 kilometrdən çox, yükqaldırma qabiliyyəti isə 2 tonadək artırılıb. Kiyev iki versiyanı nümayiş etdirib: pulemyot qurğusu olan model və "Qrad" yaylım atəşi sisteminə məxsus 10 buraxıcı qurğusu olan model. Bundan əlavə, pilotsuz katerlər kəşfiyyat dronlarını da havaya qaldıra bilir.

Son olaraq isə dekabrın 2-də səhər saatlarında Rusiyanın "Midvolqa 2" gəmisinə pilotsuz uçuş aparatı ilə hücum həyata keçirildiyi barədə məlumatlar yayılıb. Rusiyanın Dəniz və Çay Nəqliyyatı Agentliyindən bildirlib ki, gəminin üst konstruksiyasına cüzi ziyan dəyib, lakin su sızması olmayıb. Sankt-Peterburqun Böyük Limanında qeydiyyatda olan və Rusiya bayrağı altında üzən gəmi Gürcüstana yollanırmış. Hadisə Türkiyə sahillərindən təxminən 80 mil (148 km) məsafədə baş verib.

Türkiyənin Nəqliyyat və İnfrastruktur Nazirliyinin məlumatına görə, tankerin göyərtəsində 13 heyət üzvü olub. Onlardan heç biri xəsarət almayıb və yardım istəməyib. Hücumdan sonra gəmi müstəqil şəkildə Sinop limanına doğru hərəkət edib.

Göründüyü kimi, artıq Qara dənizdə ticarət gəmilərinə hücumlar intensivləşib. Ukrayna Silahlı Qüvvələrinin Rusiya gəmilərinə atəş açmasının məntiqi başadüşüləndir. Oxşar hücumlar zaman-zaman Rusiya tərəfindən də edilir. Bununla Rusiya və Ukrayna bir-birini zəifləmək, taqətdən salmaq istəyir.




Hazırda isə söhbət həm də Türkiyə sahillərinə yaxın ərazilərdə üzən gəmilərə hücum edilməsindən gedir ki, bu da qəbuledilməzdir. Hər iki tərəf Türkiyə sahillərinə yaxın ərazilərdə gəmilərə atəş açmaqdan çəkinməlidir. Nəzərə almaq lazımdır ki, Türkiyə Rusiya-Ukrayna müharibəsinin lap əvvəlindən pozitiv mövqe tutub, tərəfləri dialoqa çağırıb. Xatırlatmaq yerinə düşər ki, indiyədək Ankaranın vasitəçiliyi ilə Türkiyədə Rusiya və Ukrayna arasında üç raund danışıqlar aparılıb və xüsusilə də humanitar sahədə bir sıra razılaşmalar əldə olunub. Məhz Ankaranın vasitəçiliyi ilə bir neçə dəfə əsirlərin və meyitlərin mübadiləsi həyata keçirilib.

Bütün bunlardan sonra müharibə tərəflərinin Qara dənizdə Türkiyə sahillərinə yaxın ərazilərin atəş altında saxlanılmasına cəhd göstərmələrinin və burada təhlükəsizliyə təhdid yaradılmasının məntiqi başa düşülmür. Türkiyə Hərbi Dəniz Qüvvələrinin ehtiyatda olan kontr-admiralı Cem Gürdeniz baş verənlərə görə Ankaranın Ukrayna Silahlı Qüvvələrinə cavab verməli olduğunu bildirib. O qeyd edib ki, Türkiyənin taxıl daşımalarının təhlükəsizliyini təmin etmək üçün göstərdiyi səylər fonunda Kiyev və onun müttəfiqlərinin "türk gəmilərini cəzalandırmaq" və Türkiyə şelfində təxribat xarakterli hücumlar təşkil etmək cəhdləri qəbuledilməzdir. Gürdenizin sözlərinə görə, Ankara belə insidentləri görməzdən gələ bilməz, öz maraqları və beynəlxalq hüquqa uyğun şəkildə cavab verməlidir.

## Rəsmi Ankara narahatlığını ifadə edir

Türkiyənin rəsmi dairələrinin baş verənlərə sərt münasibəti də özünü çox gözlətməyib. Rəsmi Ankara müxtəlif səviyyələrdə ciddi narahatlığını ifadə edir.

"Rusiya və Ukrayna arasındakı müharibə Qara dənizdə gəmiçiliyə təhlükə yaradacaq səviyyəyə çatıb. Türkiyənin müstəsna iqtisadi zonasındakı ticarət gəmilərinə edilən hücum regionda narahatedici eskalasiyadan xəbər verir". Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada hökumət iclasının yekunlarına dair keçirilən brifinqdə deyib.

Onun sözlərinə görə, Ankara özünün xüsusi dəniz zonasındakı gəmiçiliyə, insanların həyatına və ekoloji vəziyyətə yönəlmiş təhlükələri heç bir halda əsaslandırıla bilən hal kimi qəbul etmir: "Belə hallarda biz müvafiq tərəflərin hamısını xəbərdar edirik".

Dövlət başçısı əlavə edib ki, Ankara Rusiya və Ukrayna arasındakı müharibənin dayandırılmasına yönəlmiş son həftələrin proseslərini diqqətlə izləyir. "Hər fürsətdə sülh səylərinə töhfə verməyə hazır olduğumuzu bəyan edirik", - deyə Türkiyə lideri vurğulayıb.

Rəcəb Tayyib Ərdoğan bildirib ki, Ankara regionda və dünyada baş verən prosesləri tənzimləmək üçün bütün imkanlara malikdir. "Çağırışlara və mənfi proseslərə baxmayaraq, Türkiyə "sabitlik və etimad adası olaraq qalır. Ölkəmiz və xalqımız heç bir təhdid qarşısında geri çəkilməyəcək. Tarix bizim qarşımıza qoyduğumuz məqsədlərə çatma nümunələri ilə doludur", - deyə qardaş ölkənin dövlət başçısı vurğulayıb.

*Mübariz FEYİZLİ*

# Müharibələrin qazandığı milyardlar...

## "Qanlı qazanc": dünya silah sənayesi 2024



Son illərdə konfranstasiyaların daha da genişlənməsi, kataklizmlərin lokal çərçivədən qlobal qarşıdurma həddinə çatması bir həqiqəti növbəti dəfə təsdiqləyir: müharibələr, silah satışı dünyanın varlanması üçün ən real yollardan biridir. Bu səbəbdəndir ki, bir sıra böyük dövlətlər, güc mərkəzləri regional və ya lokal qarşıdurmaların dayandırılmasının deyil, daha da alovlanmasının tərəfdarı qismində çıxış edir. Başqa sözlə, münaqişələrin sülh yolu ilə tənzimlənməsi onların maraqlarına cavab vermir. Burada əsas məqsədlərdən biri silah satışıdır. Belə ki, yaranan münaqişələr, qarşıdurmalar böyük dövlətlərin, silah ixracatçılarının mənafeyinə xidmət edir. Hər bir müharibə bu böyük güclərin "baqaj"ındakı arsenalın yenilənməsinə kömək göstərməklə yanaşı, milyardlarla, bəlkə də trilyonlarla gəlir verir.

## Asiya və Okeaniya geriləyib...

Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) son hesabatı da bu faktı təsdiqləyir. İnstitutun 2024-cü ilə bağlı yeni hesabatına görə, dünyanın 100 ən böyük müdafiə şirkətinin ümumi gəliri 2024-cü ildə 5,9 faiz artaraq rekord həddə - 679 milyard dollara çatıb. İnstitut silah istehsalçılarının gəlirlərinin artımını Rusiya-Ukrayna müharibəsi, Qəzza müharibəsi, eləcə də qlobal və regional geosiyasi gərginliklər və davamlı olaraq artan hərbi xərclər fonunda tələbatın artması ilə əlaqələndirir. Ötən illərdə olduğu kimi, bu il də silah istehsalı və satışından əldə edilən gəlirlərin artımının əsas hissəsi Avropa və ABŞ-dakı şirkətlərə aid olub. Hesabata görə, gəlirləri azalan yeganə coğrafi ərazi Asiya və Okeaniyadır - dünyanın digər ərazilərində silah şirkətlərinin gəlirləri artıb. SIPRI analitikləri Çin şirkətlərinin silah satışının azalmasını 2024-cü ildə əsas silah təchizatı müqavilələrinin ləğvi və ya təxirə salınması ilə əlaqələndirirlər.

Bunun nəticəsi idi ki, digər şirkətlərin gəlirləri daha da artıb - gəlirlərin artması və yeni sifarişlər fonunda bir çox silah şirkəti istehsal xətlərini genişləndirməyə, gücü artırmağa, yeni törəmə müəssisələri yaratmağa və ya rəqiblər əldə etməyə başlayıb.

## Qərbin gəliri artıb...

2024-cü ildə SIPRI-nin Top 100 siyahısındakı ABŞ silah şirkətlərinin ümumi gəliri 334 milyard dollara çatıb (artım 3,8 faiz). Reytinqə daxil olan 39 ABŞ şirkətindən 30-u, o cümlədən "Lockheed Martin", "Northrop Grumman" və "General Dynamics" özünün silah satışından əldə etdikləri gəliri artırıb. Lakin əhəmiyyətli gecikmələr və xərc artımları "F-35" qırıcı təyyarəsi, "Columbia" sinifli sualtı qayıqlar və "Sentinel" qitələrarası ballistik raketləri kimi əsas proqramlarda silahların hazırlanmasına mane olur.

Avropada reytinqə daxil olan 26 silah şirkətindən 23-ündə gəlir artımı qeydə alıb. Onların ümumi gəliri Rusiya-Ukrayna müharibəsi və Rusiyadan gələn təhdid səbəbindən 13 faiz artaraq 151 milyard dollara çatıb. Ən yüksək gəlir artımını 193 faizlə "Czechoslovak Group"da müşahidə edilib - Qrupun gəliri 2024-cü ildə Ukraynaya silah sifarişləri sayəsində 3,6 milyard dollara çatdı.

## Rusiya sanksiya altında olsa da...

SIPRI-nin hesabatında qeyd edilir ki, Avropa silah şirkətləri artan tələbatı ödəmək üçün yeni istehsal güclərinə investisiya qoyurlar. Lakin xammalın, xüsusən də vacib mineralların axtarışı Avropanın yenidən silahlanma planlarını çətinləşdirə bilər. Sanksiyalara baxmayaraq, iki Rusiya şirkəti - "Rostec" və "Birləşmiş Gəmiqayırma Korporasiyası" silah satışlarından əldə etdikləri gəlirləri 23 faiz artıraraq 31,2 milyard dollara çatdırıblar. Hesabatda qeyd olunur ki, silah ixracının azalmasının yaratdığı itkiləri daxili tələbat kompensasiya edib. SIPRI tədqiqatçıları qeyd edirlər ki, sanksiyalara əlavə olaraq, Rusiya silah şirkətləri ixtisaslı işçi qüvvəsi çatışmazlığı ilə də üzləşirlər. Lakin gözləntilərin əksinə olaraq, Rusiya silah sənayesi Ukrayna ilə müharibə zamanı dözümlülük nümayiş etdirib.




## Yaxın Şərqdə rekord...

Son reytinq cədvəlinə ilk dəfə olaraq Yaxın Şərqdən rekord sayda - doqquz silah istehsalçısı da daxil olub. Onların ümumi gəliri 31 milyard dollar təşkil edib və regionda ümumi silah satışlarından əldə edilən gəlir 14 faiz artıb. Gəlirlərini artıranlar arasında İsrailin üç silah şirkəti də var: "Elbit Systems", "Israel Aerospace Industries" və "Rafael". Onlar silah satışlarından əldə etdikləri gəliri 16 faiz artıraraq 16,2 milyard dollara çatdırıblar. Hesabatda göstərilir ki, "İsrailin Qəzza zolağındakı hərəkətlərinə qarşı müqavimətin göstərilməsi onun silahlarına olan marağa az təsir göstərib. Bir çox ölkə 2024-cü ildə İsrail şirkətlərinə yeni sifarişlər verməyə davam edib".

## Ötən illə müqayisədə...

Qeyd edək ki, 2024-cü ilin hesabatı bir daha onu göstərir ki, qlobal silahlanma sürətli şəkildə davam edir. Rəqəmləri özündən əvvəlki analogiyalarla müqayisə etsək, bu, bir daha açıq şəkildə görünəcək. Məsələn, 100 ən böyük silah istehsalçısının silah satışından və hərbi xidmətlərdən əldə etdiyi gəlir 2023-cü ildə 632 milyard dollar olmuşdu. Hətta bu rəqəm belə 2022-ci illə müqayisədə real ifadədə 4,2 faiz artımı göstərirdi. ABŞ ötənilki hesabatda 41 şirkətlə təmsil olunsa da, gəliri 317 milyard dollar olmuşdu. Avropa isə ötən hesabatdan keçən dövrdə şirkətlərin sayını azaldıb - 2023-cü ilin hesabatında "köhnə qitə" reytinqdə 27 şirkətlə təmsil olunurdu. Buna baxmayaraq gəlirlər artıb - ötənilki hesabatda bu rəqəm 133 milyard dollar təşkil edirdisə, artıq 151 milyard dollara yüksəlib. Rusiya şirkətlərinin sayında dəyişiklik olmasa da, gəlir daha çoxdur - 2023-cü ildə bu rəqəm 25,5 milyard dollar təşkil etmişdi. Son hesabatda geriləmə müşahidə olunan Asiya və Okeaniyada isə 2023-cü ildə vəziyyət daha yaxşı olmuşdu: regionun iyirmi üç şirkətinin ümumi gəliri 136 milyard dollara çatmışdı. Nəhayət, 2023-cü ildə Yaxın Şərqdən olan altı şirkətin gəliri 19,6 milyard dollar olmuşdu.

## Nüvə ehtiyatı və xərclənən milyardlar...

Nüvə başlıqlarını dizayn və istehsal edən, eləcə də xidmət göstərən atom silahları şirkətlərinə gəldikdə isə, bu məlumatlar məxfi saxlanıldığı üçün açıqlanmır. Lakin məlumdur ki, nüvə silahına malik 9 ölkə öz arsenalını saxlamaq və modernləşdirmək üçün milyardlarla dollar xərcləyir və bu xərclər 2024-cü ildə 100 milyard dolları keçib. Bu isə o deməkdir ki, orta hesabla hər dəqiqə nüvə silahlarına təxminən 190 min dollar xərclənib. Qeyd edək ki, bu ilin yayında Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilənin (NPT) imzalanmasının 57-ci ildönümü ərəfəsində "Anadolu" agentliyi nüvə silahlarına xərclənən vəsait və nüvə arsenallarının vəziyyəti barədə son məlumatları dərc etmişdi. Beynəlxalq Nüvə Silahlarının Ləğvi Kampaniyasının (ICAN) "Gizli xərclər" adlı hesabatına görə, nüvə silahına malik doqquz dövlətin ümumi xərcləri 11 faiz artaraq 9,9 milyard dollara çatıb. Xərclərə görə ABŞ liderlik edir. 2020-ci ildən 2024-cü ilə qədər nüvə silahına malik dövlətlər ümumilikdə öz arsenallarına 415,9 milyard dollar xərcləyiblər. 2024-cü ildə ABŞ 56,8 milyard dollar xərcləyərək digər səkkiz ölkənin ümumi xərclərini üstələyərək liderlik edir. Çin 12,5 milyard dollarla ikinci yerdədir, ardınca Böyük Britaniya (10,4 milyard dollar), Rusiya (8,1 milyard dollar), Fransa (6,9 milyard dollar), Hindistan (2,6 milyard dollar), İsrail (1,1 milyard dollar), Pakistan (1,1 milyard dollar) və Şimali Koreya (630 milyon dollar) gəlir.

Qeyd edək ki, SIPRI-nin məlumatına görə, 2025-ci ilin əvvəlinin statistikasına görə, dünyada təxminən 12 min 241 nüvə başlığı mövcuddur. Bunlardan:

- 9614-ü mümkün istifadə üçün ehtiyatdadır;
- 3912-si artıq çatdırılma vasitələrində yerləşdirilib;
- 2100-ü yüksək hazırlıq vəziyyətindədir.

Dünyadakı bütün nüvə başlıqlarının təxminən 90 faizi ABŞ və Rusiyaya məxsusdur. Ən çox yerləşdirilən döyüş başlığı ABŞ-dadır (1770), Rusiyada isə bu rəqəm 1718-dir. İki ölkə arasında 2026-cı ilin fevral ayında müddəti bitən Yeni START Müqaviləsi uzadılmaya bilər - bu isə yerləşdirilən nüvə silahlarının sayının artmasına səbəb olacaq.

*Pərviz SADAYOĞLU*

# Kiyev Avropadan fəal dəstək gözləyir

## Makronun fikrincə, yalnız Ukrayna öz ölkəsinin ərazi məsələlərini müzakirə etmək hüququna malikdir

**ABŞ-ın sülh planında Ukraynanın maraqlarına zidd məqamlar var. Ona görə də, Kiyev sülh prosesində Avropa tərəfdaşlarından dəstək almağa çalışır. Volodimir Zelenskinin Fransa Prezidenti Makron və Avropa İttifaqının digər üzvləri ilə görüşü də bu məqsədə xidmət edir.**

### "Ərazi mövzusu ən çətin məsələ olaraq qalır"

Qeyd edək ki, Zelenski öz "Telegram" kanalında Makronla müharibənin tezliklə başa çatması və etibarlı təhlükəsizlik zəmanətlərinin formalaşdırılması üçün danışıqlar prosesini müzakirə etdiyini yazıb: "Makronla bir neçə saat danışdıq. Bir çox detalları qiymətləndirmək mümkün oldu. Ən çox diqqət müharibənin başa çatması üçün danışıqlara, təhlükəsizlik zəmanətlərinə yönəldilib. Sülh həqiqətən etibarlı olmalıdır. Müharibə mümkün qədər tez bitməlidir". Onun sözlərinə görə, Makronla danışıqlara Böyük Britaniyanın Baş naziri Kir Starmer, Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rustem Umerov, ABŞ Prezidentinin xüsusi nümayəndəsi Stiv Uitkoff qoşulublar. Tərəflər Floridada aparılan son danışıqların nəticələrini müzakirə ediblər. "Elə indicə Emmanuel Makron, Kir Starmer, Rustem Umerov və Stiv Uitkoffla birlikdə Florida danışıqlarının nəticələrini müzakirə etdik. Bu, vacib brifinq idi. Təfərrüatları şəxsi görüşdə ətraflı müzakirə etməklə bağlı razılığa gəldik - komandalar mümkün gələcək təmaslar üçün qrafikləri razılaşdıracaqlar", - deyə qeyd olunub.

Zelenski Makronla keçirdiyi mətbuat konfransında isə deyib ki, Ukrayna rəsmiləri ilə ABŞ arasında aparılan danışıqlardan sonra sülh planı daha yaxşı görünür. Amma ərazi məsələsi ən çətin məsələ olaraq qalır. "Ərazi məsələsi pul və yenidənqurma kimi ən çətin məsələdir - avropalı tərəfdaşların iştirakı olmadan razılığa gəlmək çətindir. Təhlükəsizlik zəmanətinə gəlincə, ABŞ və Avropadan konkret detallar vacibdir. Biz burada çox diqqətli olmalıyıq, lakin plan daha yaxşı görünür", - deyə Zelenski bildirib. O əlavə edib ki, ABŞ-la danışıqlar zamanı ərazi məsələsi 6,5 saat yalnız ayrı-ayrı məqamlar üzrə müzakirə olunub.

Zelenskinin sözlərinə görə, ABŞ-la danışıqlar davam edir. Vaşinqton öz mövqeyini Ukrayna rəsmiləri ilə artıq bölüşüb və indi də eyni mövzunu Moskva ilə müzakirə etmək istəyir.



### Makron: Yekun sülh planı mövcud deyil

Fransa Prezidenti Emmanuel Makron isə bildirib ki, Ukrayna üçün təhlükəsizlik zəmanətləri üzərində iş başa çatıb. Makron bu məsələ ilə bağlı aparılacaq danışıqların avropalıların, fransızların və ukraynalıların təhlükəsizliyi üçün vacibliyini vurğulayıb. O, həmçinin qeyd edib ki, ABŞ-ın təhlükəsizlik zəmanətlərinin təmin edilməsində iştirakı Vaşinqtonla müzakirə mövzusu olacaq: "Yaxın günlərdə amerikalı rəsmilərlə danışıqlar aparılmalıdır ki, bu zəmanətlərdə ABŞ-ın iştirakı dəqiqləşdirilsin. Bundan əlavə, Moskvanın prosesdə irəliləmək istəyini və ya istəmədiyini öyrənmək üçün ABŞ və Rusiya nümayəndə heyətləri arasında danışıqlar keçiriləcək".

Fransa Prezidentinin fikrincə, yalnız Ukrayna öz ölkəsinin ərazi məsələlərini müzakirə etmək hüququna malikdir. Onun sözlərinə görə, ABŞ vasitəçi rolunu öz üzərinə götürüb və o, Donald Trampın rəhbərliyi altında ABŞ komandasının işini yüksək qiymətləndirir: "Söhbət sülhdən gedəndə hər kəsin öz rolu var, lakin ərazi məsələsini müzakirə edə biləcək yeganə tərəf Ukraynadır". Makron, həmçinin deyib ki, hələlik yekun sülh planı mövcud deyil: "Bu günə qədər ərazilər məsələsini də əhatə edən tamamlanmış plan yoxdur. Onu yalnız Prezident Zelenski təsdiqləyə bilər". O əlavə edib ki, son dövrlərdə ilk dəfə olaraq Rusiyaya təzyiq göstərmək üçün neft-qaz sektoru vasitəsilə həqiqətən bütöv yanaşma tətbiq olunur: "Biz bilirik ki, Rusiyanın hərbi səylərinin 40 faizi "kölgə donanması" vasitəsilə maliyyələşdirilir. Birincisi, irəliləyiş ABŞ-ın sanksiyalarla bağlı son qərarı ilə bağlıdır, ikincisi isə "kölgə donanması"na təzyiqin gücləndirilməsi ilə. Buna görə də əminəm ki, yaxın həftələrdə Rusiya iqtisadiyyatına və onun hərbi əməliyyatları maliyyələşdirmək imkanına təzyiq əhəmiyyətli dərəcədə dəyişəcək".

E.Makron Zelenski ilə görüşün ardınca ABŞ lideri Donald Trampla telefon danışığı aparıb. Yelisey sarayından bildirilib ki, Fransa və ABŞ prezidentləri Ukraynada etibarlı və davamlı sülhün şərtlərini, həmçinin ABŞ-ın vasitəçilik səylərini müzakirə ediblər. Fransa lideri, eyni zamanda Ukrayna üçün təhlükəsizlik zəmanətləri üzərində işin başa çatdığını deyib və bu məsələdə ABŞ ilə əməkdaşlığa hazır olduğunu ifadə edib.

### Aİ seyrçi qalmaq niyyətində deyil

Avropa İttifaqı (Aİ) da Rusiya-Ukrayna müharibəsi ilə bağlı prosesin gedişində seyrçi qalmaq niyyətində deyil. Belə ki, Aİ sülh danışıqlarının iştirakçılarına öz mövqeyi və maraqları barədə məlumat verməyi planlaşdırır. Bu barədə Avropa Komissiyasının (AK) rəsmisi Paula Pinho bildirib. "Son həftə ərzində Ukrayna ilə bağlı sülh danışıqları mövzusunda müxtəlif səviyyələrdə bir neçə müzakirə aparılıb", - deyə sözçü Brüsseldə keçirilən brifinqdə Aİ-nin son təmaslarına dair sualı cavablandırarkən deyib.

Pinho, həmçinin Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə Ukrayna Prezidenti Volodimir Zelenski arasında baş tutan telefon danışığını xatırladıb. Onun sözlərinə görə, söhbət zamanı "başqa məsələlərlə yanaşı, davam edən sülh danışıqlarının növbəti mərhələləri və bunun Avropa İttifaqı ilə bağlı aspektləri" müzakirə olunub: "Müzakirələr müxtəlif səviyyələrdə davam edir və sizi əmin edirik ki, bu sülh danışıqları çərçivəsində Avropa maraqları, eləcə də Ukraynanın Aİ ilə bağlı maraqları bütün tərəflərə çatdırılacaq".

Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen isə Avropa İttifaqı liderləri ilə Prezident Volodimir Zelenski arasında Ukraynadakı münaqişənin həlli planı üzrə aparılan müzakirələrdə irəliləyişin qeydə alındığını bəyan edib. "Fransa Prezidenti Emmanuel Makron və digər Avropa liderləri ilə görüşən Volodimir Zelenski ilə yaxşı müzakirə apardıq. Əhəmiyyətli irəliləyiş əldə etmişik və bu həftə öz təkliflərimizi təqdim etməyi planlaşdırırıq", - deyə Fon der Leyen qeyd edib.

Bütövlükdə, Ukrayna üzrə danışıqlar fəal mərhələyə keçib. ABŞ Prezidentinin xüsusi nümayəndəsi Rusiyaya səfər edib. Sülh danışıqlarında bu səfərin nəticələri vacib olacaq. Bütün hallarda isə Avropa prosesdən kənarda qalmaq istəmir.

*Nardar BAYRAMLI*

# Maduro hakimiyyətdən gedirmi?

## Venesuela prezidenti 18 ay möhlət istəyib...

ABŞ ilə Venesuela arasındakı gərginlik pik həddə çatıb. Xatırladaq ki, sentyabrın əvvəlindən ABŞ Cənubi Karib dənizində əsasən Venesueladan olan və narkotik daşımaqda şübhəli bilinən təxminən 20 sürət və motorlu qayığa hücum edib. Hücumlar nəticəsində 80-dən çox insan həlak olub. Karakas bu hərəkətləri "məhkəmədənkənar qətllər" adlandırıb. Son üç ay ərzində ABŞ Hərbi Dəniz Qüvvələri Venesuela sahillərində əhəmiyyətli qüvvələr toplayıb. "Cənubi Nizə" adlandırılan ABŞ hərbi əməliyyatında təxminən 12 min əsgər və dünyanın ən böyük təyyarədaşıyan gəmisi olan "USS Gerald Ford" da daxil olmaqla, onlarla hərbi gəmi iştirak edir. Ötən həftə Donald Tramp ABŞ ordusunun "çox tezliklə" quruda Venesuela narkotik qaçaqmalçılarına qarşı mübarizəyə başlayacağını da açıqlayıb.

Venesuela da ABŞ-ın "əzələ nümayişi"nə laqeyd qalmayıb - sentyabr ayından bəri hökumət minlərlə venesuelalını silah istifadəsi üzrə təlimləndirib və on minlərlə polis üzvünü səfərbər edib. Noyabrın əvvəlində silahlı qüvvələrin təxminən 200 min əsgər və paramilitar üzvün iştirak etdiyi genişmiqyaslı təlimləri keçirilib. Məlumata görə, bu, Venesuela Silahlı Qüvvələrinin hazırkı gücünün təxminən üçdə ikisini təşkil edir. Prezident Maduro bildirmişdi ki, əlavə 4,5 milyon hərbi təlim keçmiş vətəndaş da artıq silahlanmağa hazırdır.

### Vaşinqton terrorçu kimi tanıdı...

Son günlərdə isə iki ölkə arasındakı gərginlik daha çox diplomatik müstəviyə transfer olub. Qeyd edək ki, ötən həftə ABŞ-ın rəsmi olaraq Venesuelanın "Günəş karteli"ni xarici terrorçu qruplar siyahısına əlavə etməsi vəziyyəti daha da qəlizləşdirib. Dövlət Departamentinin yaydığı məlumatda bu təşkilatın Venesuela ordusu və hökuməti ilə əlaqəli olduğu, lakin ABŞ-da bu kartel haqqında çox az məlumatın mövcudluğu vurğulanıb. ABŞ Dövlət katibi Marko Rubio bildirib ki, bu təşkilatın siyahıya daxil edilməsini tənzimləyən bütün şərtlərə cavab verdiyinə dair kifayət qədər dəlil var.

ABŞ hakimiyyəti bildirir ki, "Günəş karteli" Venesuela prezidenti Nikolas Maduro və daxili işlər naziri Diosdado Kabellonun rəhbərliyi altında fəaliyyət göstərsə də, əsasən Venesuela ordusuna bağlıdır. Venesuela isə "Günəş karteli" adlı təşkilatın mövcud olmadığını açıqlayıb.

### Hava məkanı bağlandı...

ABŞ hərbi əməliyyat təhlükəsini əsas gətirərək Venesuela üzərindəki hava məkanını da bağlı elan edib. Bölgəyə 15 min əsgər yerləşdirilib ki, bu da Latın Amerikasında ciddi narahatlığa səbəb olub. "The Washington Post" qəzeti ABŞ-ın yüksək vəzifəli rəsmisinə istinadən ABŞ hərbi təyyarələrinin artıq "demək olar ki, daim" Venesuela sahillərində səmada patrul xidməti həyata keçirdiyini bildirmişdi. Bundan əvvəl Prezident Tramp sosial media hesabı olan "Truth Social"da yazmışdı ki, Venesuela üzərindəki hava məkanı "tamamilə bağlanmış" hesab edilməlidir. O, bu mesajı "bütün aviaşirkətlərə, pilotlara, narkotik qaçaqmalçılarına və insan qaçaqmalçılarına" ünvanladığını qeyd etmişdi. "Flightradar24"ün məlumatına görə, Venesuelanın səması demək olar ki, təyyarələrdən tamamilə "təmizlənib".

Venesuela hakimiyyəti Trampın şərhlərini beynəlxalq hüququn pozulması adlandıraraq ölkənin suverenliyinə və aviasiya təhlükəsizliyinə təhdid elan edib. Karakas həmçinin BMT-dən Amerika liderinin sözlərini qınamağa çağırış edib.



ABŞ və Venesuela arasında artan gərginlik fonunda Prezident Donald Tramp 30 noyabrda jurnalistlərə prezident Nikolas Maduro ilə telefonla danışdığını bildirmişdi. Lakin o, söhbətin nədən



### Könüllü getməsə...

getdiyini deməmişdi. Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp da Vaşinqtonun Venesuelaya təzyiqinin Nikolas Maduronu vəzifəsindən getməyə məcbur edəcəyinə və bununla da hərbi əməliyyatlardan yayınacağına ümid edir. CNN ABŞ administrasiyasındakı mənbələrə istinadən bildirib ki, Amerika liderinə ABŞ-ın həyata keçirə biləcəyi müxtəlif ssenarilər barədə məlumat verilib, baxmayaraq ki, hərəkətsizlik Vaşinqtonun növbəti addımları üçün bir seçim olaraq qalır.

Şəbəkənin məlumatına görə, Venesuela nümayəndələri Maduro və Tramp arasında mümkün birbaşa danışıqları müzakirə etmək üçün bir neçə kanal vasitəsilə əlaqə saxlayıblar. İki ölkə arasında potensial görüşün formatları ilə bağlı bir neçə müzakirə aparılıb, lakin hələlik yekun razılaşma əldə edilməyib.

Ötən həftə iki ölkə başçısı arasında telefon danışığı isə vəziyyəti dəyişib. "The Wall Street Journal"ın mənbələrə istinadən yaydığı məlumata görə, Tramp ötən həftə Maduroya bildirib ki, "könüllü olaraq getməsə", ABŞ Venesuela ilə bağlı müxtəlif variantları, o cümlədən güc tətbiqini nəzərdən keçirəcək. Nəşr iddia edir ki, iki lider həmçinin telefonla Maduro və onun yaxın ətrafı üçün mümkün əfv məsələsini də müzakirə ediblər. CNN telekanalı isə Nikolas Maduronun istefaya getməyə hazır olduğunu, lakin bunu ən azı 18 ay sonra edəcəyini bildirib.

### Yeni büro heyəti: Maduronun planı nədir?

Trampla telefon danışığının ardından Nikolas Maduro hakim Venesuela Birləşmiş Sosialist Partiyasının (VSSV) siyasi bürosunun tərkibini yeniləyib. Məlumatı Maduro özü Karakasda keçirilən mitinqdə açıqlayıb: "Mən Bolivar İnqilabının siyasi və sosial qüvvələrinin ən yüksək səviyyəsində liderliyi öz üzərinə götürəcək və bu inqilabın baş komandanı kimi mənə kömək edəcək 12 həmvətənimizdən ibarət siyasi büro təyin edirəm".

Yeni ali partiya orqanına VSSV və Venesuela kabinetindən yüksək vəzifəli şəxslər daxildir. Daxili işlər naziri Diosdado Kabello partiyanın baş katibi vəzifəsini qoruyub saxlayıb. Parlament sədri Xorxe Rodriges onun təbliğat və əks-təbliğat üzrə müavini təyin edilib.

Qeyd edək ki, bu quruma 12 nəfər daxildir. Kabello və Xorxe Rodriguesə yanaşı Hektor Rodriges, Naum Fernandes, Pedro İnfante, Fransisko Ameliax, Silia Flores, Qabriela Ximenez, Tania Diaz, Delcy Rodriges, Carmen Melendez və Grecia Colmenares də Siyasi Büroya təyin ediliblər. Maduro vurğulayıb ki, onların hər birinə artıq konkret tapşırıq verilib. Prezident yeni Siyasi Büroya dəstək verməyə çağırıb. O əlavə etdi ki, bu qurum partiya daxilində islahatları sürətləndirməli və partiyanın Venesueladakı 237 min küçə komitəsi ilə əlaqəsini təmin etməlidir.

Bu dəyişikliyin səbəbi bir sıra ehtimallarla yozulur. Belə ki, bəzi siyasətçilər bunun Maduronun ölkəni tərk edəcəyi halda onun təqib edilməməsi üçün atıldığı qənaətindədir. Bəziləri isə daha fərqli düşünür - onların fikrincə, Maduro vəzifədən getsə də, hakimiyyəti özünün ən inandığı şəxsə etibar etmək niyyətindədir.

*P.İSMAYILOV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# COVİD-19-dan daha təhlükəli!

## Yeni virus sürətlə yayılır...



Dünya hələ də COVID-19 pandemiyasının yaralarını sağaltmağa çalışarkən, yeni virus xəbərdarlığı təşvişə səbəb olub. Son illər epidemiologiya sahəsində diqqət çəkən ən böyük təhlükələrdən biri quş qripi virusudur. Bugünlərdə “Reuters” agentliyinin verdiyi məlumata görə, quş qripi virusu mutasiyaya uğrayaraq insandan insana yoluxarsa, COVID-19-dan daha ağır pandemiyaya səbəb ola bilər.

Bu arada Avropa İttifaqı (Aİ) ölkələrində yeni, ölümcül qrip virusuna yoluxma halları qeydə alınıb. Avropa səhiyyə rəsmiləri artıq bir neçə Aİ ölkəsində aşkar edilmiş H5N5 qrip virusunun yeni variantı olan subklad k qrip virusunun sürətlə yayıldığını bildirirlər.

Mütəxəssislərin fikrincə, qrip mövsümü adi haldan daha tez başlaya və əvvəlki illərə nisbətən xeyli şiddətli ola bilər. Həkimlər virusun ötürülmə sürətindən və əlamətlərinin koronavirusa bənzərliyindən narahatdırlar.

Yeri gəlmişkən, 1968-ci ildə baş vermiş Honq-Konq qripi H3N2 adlı influenza A virusu tərəfindən yaranmışdı. Bu virus sürətlə yayılaraq milyonlarla insanın yoluxmasına səbəb olub. Xüsusilə, Asiya bölgəsində təsiri daha güclü hiss olunsa da, qısa müddətdə digər qitələrə də yayılıb.

1957-ci ilin Asiya qripi isə H2N2 virusu tərəfindən törədilmiş pandemiya idi. İlk olaraq Çində qeydə alınan virus çox sürətlə yayılaraq bir neçə ay içində bütün dünyanı əhatə edib. İkinci dalğası daha ölümcül olub və xüsusilə, məktəblilər, yaşlılar və xroniki xəstəliyi olanlar ağır keçirib. Asiya qripi qlobal səhiyyə sistemlərinə böyük təzyiq yaradıb və pandemiya nəticəsində təxminən 1-2 milyon insan həyatını itirib. Virus bir neçə il dövr etdikdən sonra 1968-ci ildə yeni H3N2 ştammının meydana çıxması ilə tamamilə geriyə çəkilib.

## Quş qripi hansı təhlükələrə səbəb ola bilər?

### 50 milyon insan həyatını itirib

1918-ci ilin İspan qripi H1N1 virusu ilə törədilmiş və tarixdə ən ölümcül qrip pandemiyası kimi tanınıb. Bu virus Birinci Dünya müharibəsi illərində meydana çıxmış və qeyri-adi dərəcədə yüksək ölüm nisbəti ilə seçilib. Digər qrip pandemiyalarından fərqli olaraq, İspan qripi gənc və sağlam insanlarda da ağır fəsadlara və qəfil ölüm hallarına səbəb olub. Qısa müddətdə dünya əhalisinin üçdə biri virusla yoluxdu və təxminən 50 milyon insan həyatını itirib. Bu pandemiya tibb tarixini dəyişdirən hadisə oldu və müasir epidemiologiyanın formalaşmasına böyük təsir göstərib.

### Epizootoloji monitorinq keçiriləcək

Ölkəmizdə 8-12 dekabr tarixlərində quş qripi xəstəliyinə qarşı növbəti epizootoloji monitorinq keçiriləcək. Bu barədə AQTA məlumat yayıb.

Bildirilib ki, monitorinq zamanı risk əsasında müəyyən olunmuş ovçuluq təsərrüfatlarının və milli parkların su-bataqlıq, dənizsahili zonalar və digər ərazilərini əhatə etməklə ərazi ilə yanaşı, vəhşi quşlara baxış keçiriləcək. Xəstəlik törədicisinin aşkar edilməsi məqsədilə vəhşi quşlar ovlanacaq və bəzi sənaye əsaslı müxtəlif həcmli quşçuluq müəssisələrində, o cümlədən müxtəlif rayonlardakı (şəhərlərdəki) ailə təsərrüfatlarında saxlanılan ev quşlarından diaqnostik nümunələr götürüləcək. Habelə ölkə üzrə müəssisələrə, təsərrüfatlara, su hövzələrinə və parklara ümumi baxış keçirilməklə, məqsədyönlü maarifləndirmə-təbliğat tədbirləri həyata keçiriləcək və epizootoloji məlumatlar toplanaraq təhlil ediləcək. Monitorinqlər çərçivəsində epizootoloji vəziyyət və götürülmüş nümunələr barədə məlumatlar “Epicollect 5” proqramına daxil ediləcək.

Tədbirlər müddətində götürülmüş nümunələr Qida Təhlükəsizliyi İnstitutunun Mərkəzi Baytarlıq Laboratoriyasında müayinələrə cəlb olunacaq.




### Ölkəmiz üçün risk var?

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən virusoloq Murad Vəliyev bildirib ki, Avropada quş qripinin geniş yayılması ümumilikdə region üçün risk yaratsa da, Azərbaycan hazırda rəsmi şəkildə bu virusdan azad ölkə kimi qeyd olunur. Onun sözlərinə görə, buna baxmayaraq, tam təhlükəsizlikdən danışmaq mümkün deyil:

“Xəstə bir adamın - daşıyıcının ölkəyə gəlməsi yetərlidir ki, onu Azərbaycanda yaysın. Bu virus yeni bir forma daşıyıb, nəfəs yolu ilə keçmə şansı qazansa, daha ciddi təhlükələrə yol aça bilər. İstənilən halda, ilk dəfə quş qripi yayılanda Ümumdünya Səhiyyə Təşkilatının yardımı ilə xeyli işlərə nail olundu. Transsərhəd keçid zonalarında nəzarət gücləndirilməli, belə bir situasiya yaransa, quş ətinə nəzarət də epidemioloji cəhətdən artırılmalıdır”.

### Yeni variant daha asan yayılır

Virusoloqun sözlərinə görə, ilkin araşdırma məlumatları göstərir ki, yeni H3N2 variantı əvvəlki ştammlara nisbətən xeyli asan ötürülür və ağır əlamətlərlə müşayiət olunur: “Xəstələr temperaturun kəskin yüksəlməsi, şiddətli halsızlıq, əzələ ağrıları və davamlı, güclü öskürəkdən şikayət edirlər. Klassik qripdə olduğu kimi, ağır xəstəlik riski də qalır. Yaşlılar və xroniki xəstəlikləri olanlar ən böyük risk altındadır”.

*Yeganə BAYRAMOVA*

# Kiçik məsafələrin böyük maneələrə çevrildiyi an...




Kiməsə görə çətin görünən həyat, bir başqası üçün gündəlik həqiqətdir. Nərdivan bizim üçün beş saniyəlik məsafədirsə, başqası üçün aşılması mümkün olmayan divardır. Heç kim əlil olmağı seçmir. İnsanın iradəsi xaricində olan əlillik anidən və bir göz qırpımında baş verir. Sığortalanması heç cür mümkün olmayan bu hal yaş, din, dil, irq fərqi də tanımır. İstənilən zaman hər birimizin əlil olma ehtimalı var. nır: anadangəlmə, müharibələr, yol-nəqliyyat hadisələri, istehsalat qəzaları, xəstəliklər nəticəsində qazanılmış əlillik və şikəstlik... Ümumiyyətlə, əlillər hər cəmiyyətdə ən həssas təbəqə sayılırlar. Elə buna görə də bütün dünyada fiziki imkanları məhdud olan insanlara dövlətlər və cəmiyyətlər səviyyəsində qayğı göstərilir, onların reabilitasiyası, məşğulluqlarının təmin olunması istiqamətində konkret addımlar

### Dünya əhalisinin ən kasıb hissəsini təşkil edirlər

Yeri gəlmişkən, bu gün bütün dünyada Beynəlxalq Əlillər Günü kimi qeyd olunur. Bu barədə 1992-ci il dekabrın 14-də BMT Baş Assambleyasının qətnaməsi qəbul olunub. Əlamətdar tarixin hədəfi ictimai həyatın bütün sahələrində əlillərin hüquqlarının qorunması və geniş ictimaiyyətin diqqətini onların problemlərinə yönəltməkdir.

Dünyada yaşayan əlillər cəmiyyətin həyatında tamhüquqlu üzv kimi iştirak etmək üçün fiziki, ictimai-iqtisadi və davranış məhdudiyyətləri ilə üzləşirlər. BMT-nin məlumatına əsasən, onlar dünya əhalisinin ən kasıb hissəsini təşkil edir və təhsil, səhiyyə, məşğulluq sahələrində, eləcə də sosial və hüquqi yardım almaq baxımından digər cəmiyyət üzvləri ilə eyni imkana malik deyillər.

### Ölkəmizdə əlil hüquqları qorunur...

2006-cı ildə “Əlilliyi olan şəxslərin hüquqları haqqında” BMT-nin Konvensiyasına qoşulan Azərbaycanda əlil hüquqlarının qorunması, onların sağlamlıqlarının bərpası, sosial rifahının yaxşılaşdırılması, mənzillə təminatı, peşə ixtisasına yiyələnməsi, bir sözlə, tamhüquqlu üzv kimi cəmiyyətə inteqrasiya olunması üçün tədbirlər görülür. Həmin sahələrin hər biri üzrə lazımlı addımlar atılır.

### Son 6-7 ildə ciddi irəliləyişlər olub

Prezident İlham Əliyevin uğurlu sosial siyasəti Azərbaycanda əlilliyi olan şəxslərin də sosial təminatı, reabilitasiyası və cəmiyyətə inteqrasiyasının dəstəklənməsi tədbirlərinin ildən-ilə genişlənməsinə imkan verib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əlilliyi olan şəxslərə əlilliyə görə pensiya və ya aylıq sosial müavinət, eləcə də 18 yaşadək əlilliyi müəyyən edilmiş şəxslər aylıq müavinət ödənilir. Müharibə, hərbi xidmət vəzifələrini yerinə yetirməklə və digər xüsusi səbəblərlə əlaqədar əlilliyi olan şəxslər, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi olan şəxslər pensiya və ya müavinətlə yanaşı, Prezidentin aylıq təqaüdü ilə də təmin edilirlər. Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və 18 yaşadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edənlərə də Prezidentin aylıq təqaüdü ödənilir.

Bu sosial ödənişlərin ardıcıl olaraq artırılması təmin olunur. Dövlət başçısının imzaladığı fərman və sərəncamlar nəticəsində xüsusilə son 6-7 ildə bu sahədə ciddi irəliləyişlər əldə olunub.

### 7500-dən çox avtomobil verilib

Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə tarixi Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra 5600, ümumilikdə, ötən dövrdə 14400 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə postmüharibə dövründə 324, ümumilikdə, ötən dövrdə 7500-dən çox avtomobil verilib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan, 2021-ci ilin oktyabr ayında açılışı olan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi isə əlilliyi olan şəxslərin və digər həssas qrupların yaradıcı potensialının inkişaf etdirilməsinə mühüm dəstək göstərir. Ötən dövrdə burada mühüm bir hissəsi əlilliyi olan şəxslərdən ibarət 470 benefisiar müxtəlif yaradıcılıq istiqamətləri üzrə təlim, sosial pedaqoji və psixoloji xidmətlərdən yararlanıb.

Bütün bu tədbirlər ölkəmizdə əlilliyi olan şəxslərlə bağlı fəal dövlət siyasətinin aparıldığını göstərir.

*Yeganə BAYRAMOVA*





## Azercell-dən qış kampaniyası!

***“Xiaomi Redmi 15C” modelini əldə edən müştərilərə “DigiMax 5GB” tarifi 50% endirimlə!***

“Azercell Telekom” MMC qış kampaniyası çərçivəsində “Xiaomi” markasının populyar “Redmi 15C” modelini əldə edən abunəçilərə “DigiMax 5GB” tarifindən 6 ay ərzində 50% endirimlə yararlanmaq imkanı təqdim edir.

“Redmi 15C” böyük ekranı, yüksək yaddaşı, tutumlu batareyası və münasib qiyməti ilə seçilir.

Xatırladaq ki, “Digimax 5GB” tarifinə 5 GB mobil internet, 300 ölkədaxili danışıq dəqiqəsi, “WhatsApp” mesajlaşması üçün 1 GB və 150 SMS daxildir. Tarif 28 gündən bir yenilənir.

Kampaniya 21 dekabr 2025-ci il tarixinədək Azercell rəsmi diller mağazalarında və Kontakt Home mağazalar şəbəkəsində keçərlidir.

Ətraflı məlumat üçün: Yeni “Smartfon kampaniyası”! | Azercell



Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4826**
**Sifariş: 2473**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova